В ходе клинико-лабораторных исследований оценивалось общее состояние организма пациентов, прошедших протезирование, наличие общесоматических патологий, их сочетанных проявлений, что, по нашему мнению, может явиться предрасполагающим этипатогенетичесим причинным фактором развития осложнений и снижении адаптационных возможностей организма к ношению протезных конструкций, в частности, изготовленных из различных видов акриловых пластмасс, которые все еще широко применяются в ортопедической стоматологии и в городских условиях, и при изготовлении зубных протезов в сельской местности. В результате статистического анализа полученных анамнестических данных у всех обследуемых протезоносителей, вошедших как в основную, так и в контрольную группу, было выявлено наличие различных форм заболеваний сердечнососудистой, эндокринной систем, а также патологий желудочно-кишечного тракта. Из пациентов обеих обследуемых групп чаще встречались заболевания сердечнососудистой системы, в среднем у 37,8±2,73% лиц, обратившихся за повторным протезированием; а что касается заболеваний органов и тканей дыхательной системы и желудочно-кишечного тракта, то они были фоновыми у 12,1±1,84% и 15,6 ±2,04% протезоносителей, соответственно.

О степени адаптационных возможностей полости рта и сроках адаптации к ношению протезной конструкции и интенсивности развития воспалительного процесса в области слизистой оболочки протезного ложа судили по результатам опроса пациентов и результатам клинического обследования слизистой оболочки протезного ложа. Больные, обратившиеся за ортопедической стоматологической помощью, находились под наблюдением специалистов в течение 60 дней после фиксации съемного зубного протеза, при этом обследование состояние мягких и твердых тканей полости рта проводили и в менее отдаленные сроки. Кроме клинических, осуществлялись и лабораторные исследования, в ходе которых у некоторых протезоносителей исследовали смешанную слюну с целью изучения динамики изменения некоторых показателей местного гомеостаза и микробной обсемененности ротовой полости при протезировании съемными зубными протезами представителями патогенной, условно-патогенной и нормальной микрофлоры. Согласно полученным нами данным, наиболее оптимальным периодом для полной адаптации и полного привыкания к съемным пластиночным протезам как на верхней, так и на нижней челюсти является 15 дней - 46,5±5,92% и 43,8±5,26%, соответственно составили протезоносители, которые перестали испытывать неприятные ощущения от пребывания в полости рта съемного протеза и привыкли к протезам в вышеуказанные сроки (табл.2). При это очень важно вовремя определить причину более длительной адаптации 18,8±3,09% больных и рассматривать возникшую ситуацию как патологический синдром, представляющий серьезную проблему в деле оказания высококвалифицированной стоматологической ортопедической помощи.

Таблица 2

Сроки адаптации к съемным зубным протезам

Период адаптации	На в/ч (n = 71)		На н/ч (n = 89)		Всего	
	Абс.	%	Абс.	%	Абс.	%
10 дней	9	12,7±3,95	11	12,4±3,49	20	12,5±2,61
15 дней	33	46,5±5,92	39	43,8±5,26	72	45,0±3,93
30 дней	9	12,7±3,95	9	10,1±3,20	18	11,3±2,50
60 дней	11	15,5±4,29	19	21,3±4,34	30	18,8±3,09
Всего	62	87,3±3,95	78	87,6±3,49	140	87,5±2,61

Результаты клинических исследований показали, что в течение первых десяти дней лишь незначительное число ортопедических больных привыкают к съемным протезам, причем в это количество чаще входят пациенты со съемными зубными протезами, фиксированными на верхней челюсти-12,7±3,95%. К концу первого месяца к ношению протеза на верхней челюсти привыкли 12,7±3,95%, тогда как с адаптацией к конструкциям, зафиксированным на нижней челюсти, ситуация для пациентов складывалась менее благоприятной. Только 10,1±3,20% протезоносителей привыкли к ношению протеза на нижней челюсти в вышеуказанные сроки. К концу исследований ко-

личество адаптировавшихся больных по обеим сравниваемым группам выросло. Значительно возрос уровень адаптационных возможностей организма, и увеличилось количество пациентов, которые привыкли к ношению протеза на нижней челюсти на 60-й день наблюдений- 21,3±4,34%, и к концу второго месяца еще 15,5±4,29% привыкли к съемным конструкциям на верхней челюсти. У большинства пациентов, не привыкших к протезу вообще, диагностировались нарушения дикции, тактильной чувствительности и патологические изменения воспалительного характера на слизистой оболочке протезного ложа.

Анализ данных бактериологических исследований, представленных в нижеследующей таблице, выявил высокий уровень микробной обсемененности слизистой оболочки полости рта пациентов, как впервые протезирующихся, так и лиц, которые используют съемные акриловые конструкции в течении многих лет, по сравнению с показателями контрольной группы, которую составляли практически здоровые лица без зубных протезов. При изучении частоты встречаемости представителей патогенной, условно-патогенной и нормальной микрофлоры обращает на себя факт значительного повышения уровня высеваемости в ротовой жидкости энтерококка и негемолитического стрептококка, которые очень редко выделялись в контрольной группе и группе сравнения. Неблагоприятным фактором, нередко способствующим возникновению и развитию протезного стоматита, явилось частое обнаружение в ротовых смывах протезоносителей обеих групп, как у протезирующихся впервые, так и у лиц с многолетним стажем ношения пластинок на акриловой основе некоторых агрессивных видов грибковой инфекции (табл.3).

Таблица 3

Микрофлора полости рта у протезоносителей

Микрофлора	Контрольная группа (n=8)		Основная группа (n=11)		Группа сравнения (n=9)	
	Абс.	%	Абс.	%	Абс.	%
Streptococcus haemolyticus	3	37,5±17,1	8	72,7±13,4	7	77,8±18,9
Staphylococcus aureus	1	12,5±11,7	2	18,2±11,6	2	18,2±11,6
Enterococcus spp.	0	0	2	18,2±11,6	1	11,1±10,5
Lactobacillus spp.	4	50,0±17,7	2	18,2±11,6	2	18,2±11,6
Candida albicans	1	11,1±10,5	6	54,5±15,0	8	88,9±10,5

При сравнительной оценке показателей микробиоценоза полости рта у впервые протезирующихся и ортопедических больных с многолетним стажем были выявлены существенные различия по частоте высеваемости энтерококков и грибов рода Кандида, которые, колонизируя внутреннюю поверхность съемных пластиночных протезов и слизистой оболочки протезного ложа, способствуют возникновению так называемых протезных стоматитов и дальнейшей хронизации воспалительного процесса. По обследуемым группам протезоносителей не были обнаружены какие-либо отклонения в полученных данных по представителям нормальной микрофлоры, в частности, лактобактериям.

Полученные нами данные позволили выявить то факт, что некоторые механизмы развития осложнений съемного зубного протезирования, включая побочное токсическое действие остаточного мономера, который всегда присутствует в базисе конструкции из акриловой пластмассы, связываются со снижением естественных защитных силы органов и тканей полости рта полости на фоне снижения скорости слюноотделения и объема выделенной слюны, а также тенденции к сдвигу окружающий зубной протез среды в кислую сторону.

У пациентов основной группы на начальных этапах ортопедического лечения и в первый месяц от начала протезирования скорость слюноотделения резко снизилась более, чем в 1,5 раза и составила 0,41±0,013 мл/мин (данные статистически достоверны) против 0,71±0,016 мл/мин в группе контроля (P_1<0,001). Почти аналогичная с основной группой картина складывалась и в группе сравнения, организованной из лиц, длительное время пользующихся съемными протезными конструкциями из акриловых пластмасс- 0,42±0,019 мл/мин (табл.4). В связи со снижением функциональной активности слюнных желез и их буферной емкости у обследуемых ортопедических больных, пользовавшихся зубными протезами, в полости рта нередко созревают факторы риска развития патологических процессов в мягких тканях ротовой полости. Установлено, что у больных протезоносителей показатели гомеостаза ротовой полости по сравнению с лицами контрольной группы, не пользующимися съемными зубными протезами, несколько отличались. При этом pH ротовой жидкости

оказалось выше у протезоносителей с многолетним стажем пользования протетическими конструкциями- 6,84±0,052 по сравнению с основной группой больных.

Таблица 4

Структурные изменения ротовой жидкости у ортопедических пациентов (M±m)

Изучаемые показатели	Контрольная группа (n=8)	Пациенты	
		Основная группа (n=11)	Группа сравнения (n=9)
Скорость слюноотделения (мл/мин)	0,71±0,016	0,41±0,013 P_1<0,001	0,42±0,019 P_1<0,001 P_2>0,05
pH ротовой жидкости	6,90±0,077	6,75±0,030 P_1>0,05	6,84±0,052 P_1>0,05 P_2>0,05

Максимальные значения по исследуемому фактору, характеризующему состояние окислительно-восстановительного потенциала смешанной слюны, регистрировались у лиц контрольной группы. В целом, на основании полученных нами результатов клинических и лабораторных исследований можно сделать вывод о том, что нередкие осложнения съемного зубного протезирования на основе акриловых пластмасс связаны с побочным действием используемого базисного материала на функциональное состояние органов и тканей полости рта, характеризующимся снижением скорости слюноотделения, pH ротовой жидкости, а также негативными изменениями в ее микрофлоре.

ЛИТЕРАТУРА

1. Барадина, И.Н., Гунько И.И. Осложнения при ортопедическом лечении съемными перекрывающими протезами, фиксирующимися при помощи накорневых замковых соединений // Ортопедическая стоматология, 2012, №3, с.240-241.

2. Максюков С.Ю. Структура причинных факторов для повторного протезирования зубов в городских и сельских клиниках Ростовской области // Фунд. исследования, 2010, №11, с.84-87.

3. Сафаров, А.М. Состояние слизистой оболочки протезного ложа при съемном протезировании // Вестник стоматологии, 2010, №2, с.121-123.

4. Сулемова Р.Х., Огородников М.Ю., Царев В.Н. Клинико-микробиологическая характеристика динамики микробной колонизации съемных зубных протезов с базисами из полиуретана и акриловых пластмасс // Российский стоматологический журнал, 2007, № 6, с.20-22.

5. Emami E., de Grandmont P., Rompre P.H., et al. Favoring trauma as an etiological factor in denture stomatitis // J Dent Res., 2008, N 87, p.440-444.

6. Freitas J.B., Gomez R.S., de Abreu MHNG et al. Relationship between the use of full dentures and mucosal alterations among elderly Brazilians //J Oral Rehabil., 2008, N 35, p.370-374.

7. Hilgert J.B., Giordani J.M., de Souza R.F. et al. Interventions for the Management of Denture Stomatitis: A Systematic Review and Meta-Analysis. // J Am Geriatr Soc., 2016, v.64(12), p.2539-2545.

8. Kossioni A.E. The prevalence of denture stomatitis and its predisposing conditions in an older Greek population // Gerodontology,2011, v.28, p.85-90

Резюме

Клинико-лабораторные аспекты биосовместимости стоматологических базисных полимеров

Л.Б. Акперли, Н.А.Гурская

Были изучены показатели по частоте встречаемости осложнений зубного протезирования и структура нарушений в микробиоценозе ротовой полости в сравнительном аспекте у 315 пациентов, пользующихся протезами впервые, у лиц, имеющих многолетний стаж ношения съемных зубных протезов, а также у лиц, не пользующихся протезами вообще.

Результаты определения наиболее вероятных сроков адаптации к съемным пластиночным зубным протезам показали, что в течение 1-й недели лишь незначительное число пациентов привыкают к съемным протезам и на нижней, и на верхней челюсти. К концу второй недели наблюдался рост количества адаптировавшихся пациентов и показатели в эти сроки достигли максимальных значений. Изучение видового состава микрофлоры полости рта позволило выявить выраженные нарушения в микробиоценозе на фоне снижения количества представителей нормальной микрофлоры и повышения уровня грибковой инфекции. После протезирования у пациентов увеличилась частота высеваемости негемолитического стрептококка и грибов рода Кандида. Сдвиг pH ротовой жидкости

в кислую сторону и снижение скорости слюноотделения у больных, пользующихся съемными протезными конструкциями, свидетельствуют, по нашему мнению, о развитии воспалительного процесса в полости рта.

Summary

Clinical and laboratory aspects of the biocompatibility of dental base polymers

L.B. Akperli, N.A.Gurskaya

Were examined on the frequency of occurrence of dental prosthetic complications and disorders in the structure of microbiocenosis of oral cavity in comparative aspect in 315 patients using dentures for the first time, in the individuals with long-term experience of use wearing dentures, as well as in people who do not use dentures at all. The results determine the most likely timing of adaptation to the removable plate dentures showed that during the 1st week only a small number of patients become accustomed to the dentures, both in the lower and upper jaw. At the end of the second week result saw an increase in the number of adapted patients and indicators at this time reached maximum values. The study of the species composition of microorganisms in the oral cavity revealed marked disturbances in microbiocenosis against decrease in the number of the normal microorganisms and increase in the level of fungal infection. After the prosthesis in patients increased frequency of non-hemolytic streptococcus and fungi of the genus Candida. Shift of oral fluid pH to the acid side and the decrease in the rate of salivation in patients using removable prosthetic constructions indicate, in our opinion, the development of inflammation in the oral cavity.

Daxil olub: 10.10.2016

XRONİK ÜRƏK ÇATIŞMAZLIĞI OLAN XƏSTƏLƏRDƏ DİURETİK MÜALİCƏNİN XÜSUSİYYƏLƏRİ

K.R. Alıyeva, A.B. Baxşəliyev, S.M.Qəhrəmanova

Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Bakı

Açar sözlər: xronik ürək çatışmazlığı, böyrək patologiyaları, diuretik müalicə

Ключевые слова: хроническая сердечная недостаточность, патологии почек, лечение с диуретиками

Key words: chronic heart failure, renal pathology, treatment with diuretics

Xroniki ürək çatışmazlığı (XÜÇ) ürək-damar sistemi xəstəlikləri arasında ən geniş yayılmış və proqnostik baxımında arzuolunmaz ağırlaşmadır. Ürək xəstəliyinin etiologiyasından asılı olmayaraq XÜÇ vahid patofizioloji etiologiya üzrə meydana gəlir [1]. XÜÇ-ün patogenezində vegetativ sisnir sisteminin simpatik şöbəsinin hiperaktivliyi, renin-angiotenzin-aldosteron sistemi (RAAS) və ürək qulaqcıqları natriumuretik faktoru sistem (QNF) iştirak edir ki, bu da son nəticədə sol mədəciyin remodelləşməsi və dilatasiyaına gətirib çıxarır [2,3,4]. Ürək disfunksiyası davam etdiyi zaman simpatik sinir sisteminin və RAAS-ın uzun müddətli aktivliyi ürək-damar sisteminə mənfi təsir göstərərək, XÜÇ-ün gələcəkdə daha da şiddətlənməsinə səbəb olur, bu da öz növbəsində neyrohumoral sistemin aktivləşməsi və hiperaktivləşməsinə gətirib çıxarır və bununla da dairə qapanır [1].

XÜÇ zamanı RAAS-ın sirkulaysiyasının uzun müddətli aktivləşməsi də həmçinin ürək- damar sistemi üçün əlverişsiz sonluğa gətirib çıxarır. Plazmada angiotenzin II-nin konsentrasiyasının artması nəticəsində arteriya və arteriolun daimi spazmları yüklənməni artırır və orqan və toxumaların reperfuziyasını artırır, daimi olaraq angiotenzin II-nin və aldosteronun səviyyəsinin yüksək olması natrium və suyun absorbsiyasının artması nəticəsində onların böyrək kanalcıqlarında saxlanmasına gətirib çıxarır. Angiotenzin II hipotalamus nüvələri tərəfindən vazopressinin produksiyasını artırır ki, bu da ödem sindromunun inkişafına səbəb olur [5;6].

RAAS effektinə əks olan əsas sistem katexolaminlər və vazopressin qulaqcıq natriumuretik faktor sistemi hesab edilir. Hazırda bu sistemi 4 əsas peptid təşkil edir. Onlardan ikisi qulaqcıq natriumuretik faktor (QNF) və beyin natriumuretik faktordur (BNF), onlar ikiqat qulaqcıq natriumuretik faktor sistemini təşkil edirlər, qulaqcıq dartıldıqda və transmural qulaqcıqda təyziq artdıqda kardiomiositlərdə sintez olunur. XÜÇ zamanı QNF və BNF-ın konsentrasiyası artır, lakin onun effektiv natriumuretik

effektivliyi aşağı düşür. Bu, RAAS-ın blokadaedici effekti ilə bağlıdır, bu təsir böyrəkdaxili simpatik aktivliyin artması, QNF və BNF-yə qarşı reseptorların sayının və sıxlığının artması, peptidlərin fermentativ dağılmasının sürətlənməsi ilə müşayiət olunur [7].

Dehidratasiya terapiyası XÜÇ olan xəstələrin uğurlu müalicəsinin komponentlərindən biridir. Lakin diuretiklərə münasibətdə ziddiyyətli bir vəziyyət yaranır. Heç kəsdə bu sinifdən olan preparatların tətbiqi şübhə yaratmır, bununla yanaşı olaraq sidikqovucu vasitələrin effektivliyini sübut edən heç bir plasebo-tənzimləyən tədqiqatlar aparılmamışdır. Cody R.J. və həmmüəl. [8], Patterson J.H. və həmmüəl. [9] fikrincə, diuretiklər xəstələrin həyat proqnozunu yaxşılaşdırmır və XÜÇ-ün inkişafını ləngitmir. Onlar düzgün təyin edilmədikdə xəstələrin həyat keyfiyyətinə mənfi təsir göstərirlər.

Diuretikırin iki əsas mənfi cəhəti vardır: RAAS neyrohormonların hiperaktivliyinə səbəb olur və elektrolit pozuntusuna gətirib çıxırlar[10, 11]. Yüngül ürək çatışmazlığı zamanı tiazid və tiazidəbənzər diuretiklər təyin edilir (hipotiazid, indapamid, xlortalidon). Onlar Henle ilgəyinin kortikal və çıxan hissəsinə, distal kanalcıqların distal şöbələrinə təsir göstərərək, 30 ml/dəq-dən çox yumaqcıq filtrasiyası səviyyəsində natriurezə səbəb olurlar.Onların təsirini əsas çatışmayan cəhəti RAAS-in hiperaktivliyi və mayenin rikoşet saxlanması, hipokaliyemiya və hipomaqnezemiyadır [1,7,12].

Ürək dekompensiyasiyası şiddətləndikcə ilgək diuretiklərin təyin edilməsi (etakrin turşusu, furosemid, bumetanid) tələb edilir. Bunlar böyrəklərin kanalcıq aparatında Henle ilgəyinin qalxan hissəsində yenidən sovrulan natriumun ekskresiyasına gətirib çıxarır. İlgək diuretiklərdən yüksək dozalarda istifadə edildikdə 25%-ə qədər reabsorbsiya olunan natrium ekskresiya olunur. Vasko M.R. [13] və həmmüəl. və Brater D.C. və həmmüəl. [14] göstəricilərinə əsasən qisa müddətli təsirə malik ilgək diuretiklər (furosemid) qəbul edildikdən 6 saat sonra kəskin natriurezə səbəb olur. Furosemidin istifadəsi nəticəsində maye itgisi, arterial təzyiqin aşağı düşməsi, böyrək perfuziyası, vurğu həcminin aşağı düşməsi baş verir. Bu simpatik sistemin rikoşet aktivləşməsinə gətirib çıxarır və natriumqoruyan mexanizmləri modullaşdırır, bunlar da öz növbəsində SAS və RAAS-ın hipeaktivləşməsinə gətirib çıxarır. Noradrenalin, renin, II angiotenzin və aldosteronun konsentrassiyaı artır ki, bu da böyrək kanalcıqlarında natrium ekskresiyasının kəskin aşağı düşməsi və orqanizmdə natriumun daha çox qalmasına səbəb olur [13,15].

Bir sıra tədqiqatçılar 40-60 mq dozada furosemid qəbul edildikdən 2 saat sonra plazmada renin və hematokritin səviyyəsinin nəzərəçarpan dərəcədə artmasını qeyd etmişlər. Fransis G. və həmmüəl. [17] göstəricilərinə əsasən XÜÇ-ün gec mərhələləri və reninin hipersekresiyası olan xəstələrdə ilgək diuretiklərin venadixli yeridilməsi renin və noradrenalinin səviyyəsinin plazmada kəskin artmasına səbəb ola bilər, müvafiq olaraq, arterial spazmına və AT-in qalxmasına gətirib çıxara bilər. Yüklənmədən sonrakı belə artım ürək atım fraksiyasının qısa müddət aşağı düşməsinə və ağ ciyər arteriysaında pazlanan təzyiqin artmasına gətirib çıxarır, bu da klinik olaraq özünü təngnəfəsliyin dərinləşməsində göstərir. Bu hal diuretiklərlə terapiya başlandıqdan sonra 1 saat ərzində davam edir, bundan sonra vazokonstriktorların atımı aşağı düşür.

Xüsusilə, elektrolit balansının pozulması, hipokaliumeya ilgək diuretiklərin daha çox rast gəlinən yan effektidir. Bunun nəticəsində həmin sinifdən olan preparatlar ilə müalicə olunduqda həyati təhlükəli aritmiyaların artması baş verir. Belə ki, SOLVD tədqiqatında diuretiklər ilə müalicə ümumi ölüm, ürək-damar sistem ölümü yüksək göstəricisi, qəfil ölüm strukturunda ürək ölümü ilə müşayiət olunur [18]. Həmin tədqiqatın bölmələrindən birində əsasən ilgək diuretiklər alan azsimptomlu sol mədəcik sistolik disfunksiya olan xəstələr iştirak etmişlər. Ölüm hallarının 27%-də ürək fəaliyyəti dekompensasiya olmadan aritmik ölümün baş verdiyi qeydə alınmışdır. İlgək və tiazid diuretiklərin qəbulu ilə bağlı olaraq aritmik nisbi ölüm riski həmin diuretikləri almayan xəstələrə nisbətən 1,80 təşkil etmişdir. Bu onunla izah edilə bilər ki, həmin preparatlar hipokaliyemiya və hipomaqnezemiyaya səbəb olaraq, Q-T intervalının uzanmasına və "piruet" tipli mədəcik taxikardiyanın baş verməsinə səbəb olur.

Müəlliflərin əksəriyyəti tiazid və ilgək diuretiklərin angiotenzinçevirən ferment inhibitoru və hiperaktivləşmiş neyrohumoral sistemə təsiri dəyişən beta-adrenoblokatorlar ilə kombinasiyasında təyin etməyə tövsiyə edirlər [1,7,19].

İlgək diuretiklərin yüksək dozada qəbul edilməsinin əsas yan təsirlərindən biri metabolik alkalozdur, hiperkapniya və tənəffüs pozuntusu müşayiət olunan respirator asidoz nəticəsində, öz növbəsində ümumi və ürək ölümü riski yüksək olur [19;20;21]. Lakin uzun müddətli təsirə malik olan və bir sıra əlavə faydalı təsirlərə malik olan ilgək diuretiklər sinfinə aid edilən başqa sidikqovucu preparatlar da vardır ki, onlara torsemid aid edilir [22]. Bolke T. və həmmüəl. [23], Muller K. və həmmüəl. [24] fikrincə torasemidin əsas üstünlükləri yüksək bioloji yetərliyi (79-91%), yarımqovuculuq dövrün kifayət qədər uzun olması (3-5 saat), çıxarmanın ikiqat yolla getməsi və RAAS-ın eynizamanlı blokadası ilə əlaqədar olaraq əlavə effektlərindən ibarətdir [7,24,25].

Torasemid Henle ilgəyinin qalxan hissəsinə təsir göstərir, burada o, natrium və xloridin reabsorbsiyasını inhibirləşdirir. Bundan başqa, o, aldosteron effektini blokadaya alır ki, bunu da bir sıra tədqıqatçılar öz işlərində göstərmişlər. Onlar tərəfindən müəyyən edilmişdir ki, torasemid siçovulların böyrəklərində aldosteronun əlaqələnməsinə təsir göstərir [26].

Bolke T. göstəricilərinə əsasən torasemidin dozasının artması diurezin və natrium və xloridin ekskresiyasının xətti artması ilə müşayiət olunmuşdur, eyni zamanda kaliumun çıxması da aşkar edilməmişdir [23]. Brunner G. və həmmüəl. tədqiqatlarında torasemid kaliumun zərdab səviyyəsinə minimal təsir göstərmişdir, bu göstərici yüksək dozalarda preparat uzun müddət qəbul edildikdə stabil olaraq qalmışdır [27].

Yamato M. və həmmüəl. [25] fikrincə, torasemid ilə müalicə zamanı aldosteron reseptorlarını blokada edərək sol mədəciyin remodelləşməsinin qarşısını almaq olar. Açıq 6-aylıq randomizəolunmuş tədqiqatda həmin müəlliflər torasemid ilə furosemidin effektivliyini III-IV funksional sinifli XÜÇ olan 50 xəstədə qarşı-qarşıya qoymuşlar. Sutkada 20-40 mq furosemid və AMF inhibitoru alanlar müalicəyə cavab verməmişlər. Əsas qrup xəstələr sutkada 4-8 mq dozada torasemid ilə müalicə almış, müqayisə qrupu isə əvvəlki terapiyanı davam etdirmişlər. 6-aylıq müşahiyədən sonra müəyyən edilmişdir ki, torasemid ilə müalicə son diastolik ölçünün və sol mədəcik miokard kütləsi indeksinin azalmasına, onun diastolada dolma parametrlərinin yaxşılaşmasına, eləcə də natriumuretik peptid konsentrasiyasının aşağı düşməsinə, renin və aldosteron aktivliyinin artmasına gətirib çıxarmışdır. Müəlliflərin fikrincə, bu da torasemid ilə müalicənin təsiri altında reseptorların blokadası ilə bağlıdır [25].

Murray M. və həmmüəl. açıq tədqiqatında torasemid alan xəstələrdə furosemid olan xəstələrə nisbətən XÜÇ-ün dekompesasiyası üzrə hospitallaşmanın səviyyəsinin aşağı olması aşkar edilmişdir. Bunu müəlliflər aldosteron reseptorlarının blokadasının müsbət effektivlyi ilə əlaqələndirmişlər [28].

PEACH tədqiqatında müəyyən edilmişdir ki, torasemid eyni klinik effektivlik zamanı XÜÇ olan xəstələrin həyat keyfiyyətinə kəskin pis təsir göstərir. [22]. İrimiqyaslı açıq randomizəolunmuş TORIC (Torasemide In Congestive Heart Failure) [29] tədqiqatında XÜÇ olan 1377 xəstə iştirak etmişdir. Müəyyən edilmişdir ki, torasemid alan xəstələr qrupunda furosemid və ya başqa diuretiklər alan xəstələrə nisbətən ümumi və ürək-damar ölümü dürüst aşağı olmuşdur. Torasemid ilə müalicə zamanı hipokaliyemiya tezliyi başqa diureitklər ilə müalicəyə nisbətən nəzərəçarpan dərəcədə aşağı olmuşdur. NYHA üzrə XÜÇ-ün funksional sinfi torasemid ilə müalicə fonunda 45,8% və başqa diuretiklər alan xəstələrdə 37,2% aşağı düşmüşdür. Əksər tədqiqatçılar əmindirlər ki, alınan nəticələr torasemidin aldosteron reseptorların blokadası vasitəsilə humoral cə toxuma RAAS-a təsiri və aldosteronun simpatik sinir sisteminin aktivləşməsi kimi arzoulunmaz effekti parasimpatik baroreseptor disfunksiya, elektrolit pozuntular, miokard fibrozunun inkişafı ilə bağlıdı.

2004-cü ildə Lopez və həmmüəl. tərəfindən torasemid ilə müalicənin miokard fibrozunun qarşısının alınmsında effektivliyi təsvir edilmişdir. Onların fikrincə, bu hal, müalicə fonunda I tipli kollagenin sintezinin blokadası ilə bağlıdır [30]. 2006-cı ildə Yapon müəllifləri Kasama və həmmüəl. tərəfindən aparılan tədqiqatlarda durğun XÜÇ olan xəstələrdə torasemidin simpatik aktivliyə təsiri öyrənilmişdir. 44 xəstə üzərində aparılan ikiqat tədqiqatda 6 ay ərzində 22 xəstə ilməvari diuretik qismində furosemid, 22 xəstəisə torasemid almışdır. Müalicə nəticəsində torasemid qrupunda beyin natirumuretik peptidin konsentrasiyasının dürüst aşağı düşdüyü müəyyən edilmişdir, bu zaman furosemid qrupunda həmin parametrin hədləri dəyişməmiş qalmışdır. Torasemid alan xəstələrdə XÜÇ-ün funksional sinfinin, sol mədəciyin dolma təzyiqinin dürüst aşağı düşməsi, atım fraksiyasının artması və adrenergetik reseptorların sıxlığını yüksəlməsi qeydə alınmışdır. Müəlliflər belə qənaətə gəlmişlər ki, furosemid ilə müqayisədə torasemid XÜÇ olan xəstələrdə sol mədəcik remodelləşməsini azaldır və kardiomiositlərin simpatik innervasiyasını yaxşılaşdırır [31].

Neyrohumoral stimulyasiyanın vəziyyətinin əks etdirilməsi üçün ürək ritmi variabelliyinin (ÜRV) qiymətləndirilməsindən XÜÇ-ün aparılan kompleks müalicəsinin effektivliyinin meyarı qismində istifadə edilir [32]. Bu problemin aktuallığına baxmayaraq, əldə etdiyimiz ədəbiyyatda həmin mövzuya həsr edilmiş çox az nəşrlərə rast gəldik. 1999-cu ildə Yapon tədqiqatçıları Tomiyama və həmmüəl. [33], aldıqları nəticələri nəşr etdirilmişdir. Onlar ürək çatışmazlığı olan xəstələrdə ÜRV-ə qısa müddətli təsirə malik ilgək diuretik olan furosemid və uzun müddətli təsirə malik olan ilgək diuretik azosemidin təsiri müqayisə edilmişdir. Müəyyən edilmişdir ki, furosemid alan xəstələrdə 24-saatlıq eyni natrium ekskresiyası olduğu zaman onun qəbulundan sonarkı ilk saat ərzində qan plazmasında renin və hemotakritin konsentrasiyası nəzərəçaan dərəcədə artmışdır. Bununla yanaşı olaraq ÜRV-in zaman göstəriciləri SDNN və SDANN ilkin göstəricilərə nisbətən dürüst və nəzərəçarpan dərəcədə aşağı düşmüşdür. Azosemid ilə müalicə fonunda ÜRV-in aşağı düşməsi dürüst olmamışdır. Beləliklə, müəyyən

edilmişdir ki, uzun müddətli təsirə malik olan ilgək diuretik azosemidə nisbətən furosemid ÜRV-yə daha yüksək mənfi təsir göstərir [33].

Korkmaz M.E. və həmmüəl.[34], 2000-ci ildə XÜÇ ilə ağrılaşan işemik kardiomiopatiyalı 126 xəstədə spironolaktonun ürək ritminin variabelliyinə və sol mədəciyin sistolik funksiyasına təsirini öyrənmişlər. 12 ay müddətində xəstələrdə AÇF inhibitorları, diqoksin və furosemid ilə yanaşı, 50 mq dozada spironolakton da almışlar. Zaman göstəricisindən olan SDNN-in hədinin 50% dürüst artması sübut etmişdir ki, spitonolakton ilə müalicə fonunda simpatik-vaqal balansın normallaşması baş verir. Müşahidələrdən 2 ay sonra müayinə edilənlərdə sol mədəcik atın fraksiyasının artması və NYHA üzrə ürək çatışmazlığının funksional sinfinin azalması qeydə alınmışdır.

Korkmaz və həmmüəl. aldıqları nəticəni Çin tədqiqatçıları Zhang Yu və həmmüəl. təsdiq etmişlər. Onlar müəyyən etmişlər ki, spironolaktonun tətbiq edilməsi XÜÇ olan xəstələrdə ÜRV yaxşılaşdırır [35]. X.X.Şuquşeva və A.A,Qayevanın 2010-cu ildə apardıqları tədqiqatda [36], furosemid ilə müalicə fonunda ümumi variabellik və vegetativ sinir sisteminin parasimpatik tənzimlənmənin parasimpatik halqasını xarakterizə edən zaman göstəricilərinin həddi dürüst aşağı düşdüyü göstərilmişdir. Bunun nəticəsində vegetativ balans ürək ritminə simpatik təsirlərin qüvvətlənməsinə tərəf yerini dəyişmişdir. Bunun simpatik təsirin gücləndiyini xarakterizə edən LF/HF göstəricisinin dürüst artması sübut etmişdir. Torasemid qrupunda isə əksinə olaraq, zaman göstəriciləri və parasimpatik aktivliyi xarakterizə edən parametrlərin dürst artması aşkar edilmişdir.

Beləliklə, XÜÇ-ün müalicəsi üçün güclü sidikqovucu aktivliyə malik olan ilgək diuretiklər seçim preparatı olaraq qalır. Baxmayaraq ki, bütün ilgək diuretiklər ekvivalent dozada diurezinin artmasına səbəb olur, onların farmakokinetik və farmakodinamik xüsusiyyətləri ilə əlaqədar olaraq effektvliyi aşağı düşə bilər. Furosemid ilə müqayisədə torasemid yüksək bioloji yetərliyə, daha uzun müddətli yarımxaricolmaya malik olub, stabil diuretik təsir göstərir. Bu xassələr onun XÜÇ olan xəstələrdə yüksək effektivliyini təyin edir ki, bu da bir sıra klinik tədqiqatlarda nümayiş etdirilmişdir. Torasemidin nəzərəçarpan üstünlüyü hipokalium riskinin aşağı olmasından ibarətdir ki, bu da bir çox hallarda diuretik terapiyanı məhdudlaşdırır. Yuxarıda qeyd edilənlərlə əlaqədar olaraq, XÜÇ olan xəstələrdə əsas ilgək diuretiklərin (furosemid və torasemid) klinik effektivliyinin kompleks şəkildə öyrənilməsi, eləcə də onların müqayisəli şəkildə qanın elektrolit balansına və ürək ritmi variabelliyi göstəricilərinə təsirinin qiymətləndirilməsi aktual məsələ hesab edilir.

ƏDƏBİYYAT

1. Национальные рекомендации по диагностике и лечению хронической сердечной недостаточности (третий пересмотр). Утверждены конференцией ОССН 15 декабря 2009 года // Сердечная недостаточность, 2010. № 1(57). Том 11, с. 15-19.
2. Pathak A., Fourecade J., Castel A. et al. Approach of treautonomic nervose system in chronic heart failure: is QT dynamicity better than heart rate variability? // Eur. Heart J., 2000, v.21 (suppl), p. 33.
3. Kukokawa J., Abriel H. Neurohormonal regulation of cardiac ion channels in chronic heart failure // Cardiovasc. Pharmacol., 2009, v.4, p.765-769.
4. Albert N.M., Boehmer J.P., Collins S.P. et al. Executive Summary: HFSA 2010 Comprehensive Heart Failure Practice Guigeline // Journal of Cariac Failure, 2010, v.16, p.475-539.
5. Anard I. Patogenesis of salt and water retention in the congestive heart failure syndrome. In Pode // Am. J. Med., 2001, v.111 (7), p. 513-520.
6. Dickstein K., Cohen-Soial A., Filppatos G. et al. Task Force for Diagnosis and Treatment of Acute and Chronic Heart Failure 2008 of European Spciety of Cardiology; Vahanian A., Camm J., De Caterina R. et al. ESC Commetee for Practice Guidelines. Deveicped in collaboration with the Heart Failure Association of the ESC (HFA) and endorsed by the European Society of intensive Care Medicine (ESICM) // Eur. Heart J.. 2008, v.29 (19), p. 2388-2442.
7. Беленков Ю.М., Мареев В.Ю., Агеев Ф.Т. Хроническая сердечная недостаточность. Избранные лекции по кардиологии. М.: ГЭОТАР-Медиа; 2006, 200 с.
8. Cody R J., Cubo S.H., Pikworth K.K. Diuretic treatment for the sodium retention of congestive heart failure // Arch. Intern. Med.,1994, v. 154, p. 1905-1914.
9. Patterson J.R., Adams K.F., Applefeld M.M. et al. Torasemide Investigators Group. Oral torasemide in patients with chroinic heart failure: effects on body weight, edema and electrolyte excretion // Pharmacotherapy,1994, v.14, p. 514-521.
10. Фомин И.В. Эпидемиология хронической сердечной недостаточности в Российской Федерации. / Хроническая сердечная недостаточность. М.:ГОЭТАР-Медиа, 2010, с.7-77.

11. Couper H.A., Dries D.I., Davis C.E. et al. Diuretics and risk of arrhythmic death in patients with left ventricular dysfunction // Circulation,1999, v.100, p. 1311-1315.

12. Сидоренко Б.А., Преображенский Д.В., Батыралиев Т.А. и др. Место диуретиков в лечении хронической сердечной недостаточности. Часть I. // Кардиология, 2005. № 8, с. 76-83.

13. Vasko M.R., Cartwright D.B., Knochel J.P. et al. Furosemid absorption altered in decompensated congestive heart failure // Ann. Inern. Med. 1990, v.102, p.314-318.

14. Brater D.C. Torasemide: pharmacokinetic and-clinical efficacy //Eur. J. Heart Failure, 2001, v.3, (Supp), p.19-24.

15. Загравская И.А. Нарушения ритма сердца и электролитный дисбаланс крови при сравнительном лечении хронической сердечной недостаточности петлевыми диуретиками // Российский медико-биологический вестник им. Академика И.П. Павлова, 2010, № 2, с.78-85.

16. Tomiyama H., Nakayama T., Watanabe G. et al. Effekt of short-acting loop diuretics on heart rate variability in patients with chronic compensated congestive heart failure // Am. Heart J.,1999, v. 137(3), p. 543-548.

17. Francis G.S. Development of arrhythmias in the patient with congestive heart failure: pathophysiology, prevalence and prognosis // Am. J. Cardiol., 1986. v.57, p. 38.

18. Studies of Left Ventricular Dysfunction (SOLVD) // Am J. Cardiol., 1990, v.66, p. 315-322.

19. Сидоренко Б.А., Преображенский Д.В., Батыралиев Т.А. и др. Место диуретиков в лечении хронической сердечной недостаточности. Часть I. // Кардиология, 2005, № 8, с. 76-83.

20. ACC/AHA 2005 Guideline Update for the diagnoisis and management of chronic heart failure in the adult // Circulation, 2005, v. 112, p. 154-235.

21. Albert N.M., Boehmer J.P., Collins S.P. et al. Executive Summary: HFSA 2010rComprehensive Heart Failure Practice Guigeline // Journal of Cariac Failure, 2010, v.16, p.475-539.

22. Noe L.L., Vreeland M.G., Pezzella S.M., Trotter J.,P. A pharmaeco-nominal assessment of torasemide in the treathment of patients with congestive heart failure // Clin. Ther., 1999, v.21 (5), p. 854-856.

23. Bolke T., Achhammer I Torasemide: review of its pharmacology and therapeutic use//Drugs of today.-1994, v.8, p. 1-28.

24. Muller K., Gamba G., Jaquet F., Hess B. Torasemid vs. furosemid in-primary care patients with chronic heart failure NYHA II to IY - efficacy and quality of life // Eur. J. Heart Failure, 2003, v 5 (6), p. 793-801.

25. Yamato M., Sasaki T., Honda K. et al. Effects of torasemide in left ventricular function and neurohumoral factors in patients with chronic heart failure // Circ. J. 2003, v.67(5), p.384-390.

26. Uchida T., Yamanaga K., Nishikawa M. et al. Anti-aldosterone effect of torasemide // Eur. J. Pharmacol., 1991, v. 205, p. 145-150.

27. Brunner G., von Bergmann, K., Hacker W. Comparison of diuretic effects and pharmacokinetic of torasemid and furosemid after a single oral dosen^ in patients hydropically decompensated cirrohosis of the liver // Arzt-Forsch. Drug Res., 1998, v.38, p.76-179.

28. Murray M., Deep M:, Ferguson J. et al. Open-label randomized trial of torasemide compared with furosemide therapy for-patients with heart failure // Am. J. Med., 2001, v.7, p.513-520.

29. Cosin J., Diez J. TORIC investigators. TorasemidJn chronic hear failure results of the TORIC study // Eur. J. Heart Failure, 2002, v. 4.(4), p. 507-513.

30. Lopez B., Querejeta R., Gonzalez A. et al. Effect of loop diuretic on myocardial fibrosis and collagen «type I turnover in chronick heart failure // Am. J. Cardiol., 2004, v.43, p.2028-2035.

31. Kasama S., Tiyana T., Hatori T., Sumino H., Kumakura H., Takayama Y., Ichikawa S., Suzuki T. and Kurabayashi M. Effect of torasemide on cardiac sympathetic nerve activity and left ventricular remodeling in patients with congestive heart failure // Heart, 2006, v.92(10), p.1434-1440.

32. Баевский Р.М., Иванов Г.Г. Анализ вариабельности сердечного ритма при использовании различных электрокардиографических систем: Методические рекомендации // Вестник аритмологии, 2001, № 24, с.65-86.

33. Tomiyama H., Nakayama T., Watanabe G., Shiojima K., Sakuma Y., Yamamoto A., Immai Y., Yoshida H., Doba N. Effekt of short-acting loop diuretics on heart rate variability in patients with chronic compensated congestive heart failure // Am. Heart J., 1999, v.137 (3), p.543-548.

34. Korkmaz M.E., Muderrisoglu H., Ulukam M, Ozin B. Effekt of spironolactone on heart variability and left ventricular systolic function in severe ischemic heart failure // Am.J.Cardiology, 2000, v.86, p649-653.

35. Zhang Yu, Liu Jie, Wang Yan-hua et al. Intervention of spironolactone on heart rate variability and its circadian rhythm in patients with heart failure // J. of Chinese Clinical Medicine, 2006, v.1(5), p.264-267.

36. Шугушев Х.Х., Гаева А.А. Влияние фуросемида и торасемида на ВРС и желудочковые аритмии у больных с хронической сердечной недостаточностью, осложнившей течение ишемической болезни сердца: сравнительное нерандомизированное исследование // Рациональная Фармакотерапия в Кардиологии, 2010, №6(4), с.513-517.

Резюме

Особенности диуретического лечения больных с хронической сердечной недостаточностью

К.Р.Алиева, А.Б.Бахшалиев, С.М.Гахраманова

В настоящее время при лечении ХСН методом выбора остаются петлевые диуретики, обладающие сильной мочегонной активностью. Несмотря на то, что в эквивалентной дозе все петлевые диуретики способствуют повышению диуреза, их эффективность может снизиться в связи с их фармакокинетическими и фармакодинамическими особенностями. Торасемид, по сравнению с фуросемидом, оказывает стабильное диуретическое влияние, обладая, при этом, высокой биологической особенностью и наиболее продолжительным временем полувыведения.

Summary

Features of diurethic treatment patients with chronic cardiac insufficiency

K.R.Aliyeva, A.B. Bakhshaliev, S.M. Gahramanova

Currently, in the treatment of CHF, the method of choice remains loop diuretics, which have a strong diuretic activity. Despite the fact that in an equivalent dose, all loop diuretics promote diuresis, their effectiveness may decrease due to their pharmacokinetic and pharmacodynamic features. Torasemide, in comparison with furosemide, has a stable diuretic effect, while possessing a high biological feature and the longest half-life.

Daxil olub: 20.10.2016

NEMATODOZLARIN BAĞIRSAQ MƏRHƏLƏSİNİN KLİNİK-LABORATOR XARAKTERİSTİKASI

X.N.Xələfli

Azərbaycan Tibb Universiteti, epidemiologiya kafedrası, Bakı

Açar sözlər: bağırsaq parazitar xəstəlikləri, insan parazitozları, qurd invaziyaları
Ключевые слова: кишечные паразитарные заболевания, паразитозы человека, глистные инвазии
Key words: intestinal parasitic diseases, human intestinal parasitosis, helminthic infections

ÜST-ün sağlamlıq haqqında tövsiyələrini rəhbər tutaraq dünyada hazırkı gündə tamamilə sağlam şəxs tapmaq çətindir. Təəssüf ki, xəstəlikPlər dünya əhalisinin əksəriyyətini zədələməkdə (onunla yanaşı böyük iqtisadi zərər vurmaqda) davam edir. Bu baxımdan parazitar xəstəliklər də istisna deyildir, onlar XX əsrin sonunda insanların ölümünün əsas səbəblərindən biri sayılır, belə ki, parazitar xəstəliklərin payına bütün ölüm hallarının 1/3 hissəsi düşür [1,2]. İnsanın helmintozları tibb elmi və praktik səhiyyə üçün ciddi problem sayılır, bütün parazitozların 99%-i onların payına düşür. Helmintozların xüssusiyyətlərinə hətta bir növ törədici ilə yoluxduqda klinik əlamətlərin olduqca rəngarəng olması da aiddir – simptomsuz (subklinik) gedişdən ağır hallara və letal nəticələrə qədər. Hazırda mövcud olan məlumatlara əsasən helmintlər təkcə bilavasitə parazitlik etdiyi orqanların zədələnməsini törətmir, həm də bütün orqanizmin, xüsusilə də mərkəzi sinir sisteminin zədələnməsinə səbəb olur. Bəzi parazitar xəstəliklər qabarıq nəzərə çarpan klinik simptomlarla müşayiət olunan kəskin xəstəliyin səbəbi ola bilər [3,4].

Çoxsaylı epidemioloji müşahidələr onu göstərir ki, bağırsaq parazitozlarının fonunda kəskin bağırsaq infeksiyaları 2-5 dəfə çox baş verir [5,6,7]. Parazitar invaziyalar zamanı bağırsaq əlamətləri ilə yanaşı bəzi simptomlar, məsələn, makulo-papulyoz və urtikar səpgilər, ağız boşluğunun selikli qişasının aftoz xoraları, həmçinin müxtəlif etiologiyalı artritlər müşahidə edilir. Helmintlər insanın orqanizminə daxil olaraq bağırsağın boşluğunda mikroekoloji tarazlığı pozmağa və mikrofloranın disbalansını törətməyə qadirdir. Məlumdur ki, bağırsaq helmintləri mədə-bağırsaq yolunun boşluğunda ximizmi dəyişdirir ki, bu da normal bağırsaq mikroflorasının tərkibinin dəyişməsinə gətirib çıxara bilər. Ona görə də, çox vaxt bağırsağın

disbakteriozunu qurd invaziyaları müşayiət edir və mədə-bağırsaq yolunda baş verən funksional pozğunluqlarla bu vəziyyətlərin klinik mənzərəsini ağırlaşdırır [8,9].

Mikroekoloji pozğunluqlar öz növbəsində bəzən patoloji proseslərin işəsalma, sonra isə həm də saxlanması mexanizmi kimi iştirak edir. Bununla əlaqədar olaraq helmintozlarla yoluxmuş şəxslərdə bağırsağın mikrobiosenozunun müayinəsinin aktuallığı şübhə doğurmur

Tədqiqatın məqsədi askaridozun bağırsaq mərhələsi olan xəstələrdə yoğun bağırsağın mikroflorasının vəziyyətinin müayinəsi olmuşdur.

Tədqiqatın material və metodları. Bizim müşahidəmiz altında askaridozun bağırsaq mərhələsi ilə 125 xəstə olmuşdur. Xəstələrin tədqiqata qoşulmasının meyarı aşağıdakılardır: hər iki cinsdən olan böyük yaşlı xəstələr (18 yaşdan yuxarı). Tədqiqatdan çıxarılmanın meyarları: askaridozun bağırsaq mərhələsi olan xəstələrdə yanaşı gedən kəskin xəstəliklərin və ya xronik keçən somatik xəstəliklərin kəskinləşməsi hallarının olmasıdır. Askaridoz diaqnozu klinik-epidemioloji və laborator məlumatların əsasında qoyulmuşdur. Xəstələrin hamısında askaridoz diaqnozu nəcisdə yumurtaların nativ yaxma və Kato metodu ilə aşkar edilməsi yolu ilə təsdiq edilmişdir. Xəstələrin hamısını dəri əlamətləri olduqda dermatoloqlar, allerqoloqlar, xronik terapevtik patologiyalar olduqda isə- terapevtlər, endokrinoloqlar, hematoloqlar, qadınlar olduqda – ginekoloqlar müayinə etmişlər. Alınan nəticələr aşağıdakı biometrik metodlarla işlənmişdir: orta ədədi kəmiyyət və Styudent meyarları.

Cədvəl 1

Askaridozun bağırsaq mərhələsi olan xəstələrdə ümumi-klinik simptomlar (n=125)


Klinik simptomlar	Simptomların tezliyi					
	Ümumi (n=125)		Kişi (n=43)		Qadın (n=82)	
	Müt.	%	Müt.	%	Müt.	%
Zəiflik, yorğunluq	120	96,0±2,1	38	88,4±4,9	82	100
Baş ağrısı	22	17,6±2,4	5	11,6±4,9	17	20,7±4,5
Yuxunun pozulması	13	10,4±2,7	6	14,0±2,8	7	8,5
Dırnaqların qırılması	15	12,0±3,2	3	6,9	12	14,6±3,9
Dərinin quru olması	44	35,2±4,3	12	27,9±6,8	32	39,0±5,4
Dəridə səpgilər	78	62,4±4,3	21	48,8±7,6	57	69,5±5,2
Quru öskürək	28	22,4±4,3	16	37,2±7,4	12	14,6±3,9
Qaraciyərin böyüməsi	18	14,4±3,2	8	18,6±5,9	10	12,2±3,5
Hemoqlobin göstəricilərinin aşağı düşməsi	38	30,4±4,1	11	25,6±6,6	27	32,9±5,1
İş qabiliyyətinin zəifləməsi	56	44,8±4,4	21	48,8±7,6	35	42,7±6,5
Qızdırma (subfebril)	15	12,0±3,2	3	6,9	12	14,6±3,9
Lifma düyünlərinin böyüməsi	12	9,6±3,1	3	6,9	9	10,9±3,4
Tüklərin nazilməsi və tökülməsi	12	9,6±3,1	4	9,3	8	9,8
Həyat tonusunun və əhvalın aşağı düşməsi	81	64,8±4,4	16	37,2±7,4	65	79,3±4,4
Anal qaşınma	13	10,0±2,7	10	23,3±6,4	3	3,7
MBY-nin disfunksiyası, o cümlədən:						
-iştahanın pozulması	25	20,0±4,3	8	18,6±5,9	17	20,7±4,5
- duru nəcis	29	23,2±4,2	15	34,9±7,2	14	17,1±3,9
-qəbizlik	17	13,6±3,2	9	20,9±6,2	8	9,8
- ürəkbulanma, ağızda acılıq hissiyyatı	17	13,6±3,2	4	9,3	13	15,9±3,8
Abdominal ağrı sindromu	96	76,8±3,8	39	90,7±4,4	57	69,5±5,2

Nəticələr və müzakirə. Aparılan tədqiqatlar göstərmişdir ki, bizim müşahidə etdiyimiz askaridozun bağırsaq mərhələsi olan xəstələrdə aşağıdakı simptomlar və sindromlar nəzərə çarpmışdır: zəiflik

(96,0±2,1%), MBY-nin disfunksiyasının simptomlarının kompleksi (qəbizlik, duru nəcis, iştahanın pozulması, ürəkbulanma, qarında ağrı)-13,6±3,2%, allergik sindrom (səpgi, övrə, qaşınma və s.)-64,8±4,3%, quru öskürək (22,4±4,3%), baş ağrısı (17,6±2,4%), sağ qabırğaaltı nahiyədə ağırlıq (14,4±3,2%), subfebril temperatur (12,0±3,2%), hipotireoz simptomları- tüklərin nazilməsi və tökülməsi, dırnaqların qırılması, dərinin quru olması, həyat tonusunun aşağı düşməsi (60,8±4,4%) (cədvəl 1).

Cədvəl 1-də təqdim olunmuş şikayətləri sistemləşdirərək intoksikasiya, MBY-nin disfunksiyası, allergik sindrom və hipotireoz simptomları ilə əlaqədar olan şikayətlərin üstünlük təşkil etdiyini qeyd etmək lazımdır. Şikayətlərin böyük hissəsi bizim fikrimizcə, distrofik pozğunluqların inkişaf etməsi ilə əlaqədardır (tüklərin nazilməsi və töküməsi, dırnaqların qırılması, dərinin quru olması). Kişilərin və qadınların klinik simptomatikasını müqayisə edərək biz qadınlarda həyat tonusunun və əhvalın aşağı düşməsi kişilərə nisbətən xeyli üstünlük təşkil etməsini (37,2±7,4 və 79,3±4,4%) aşkar etmişik. Zəiflik 100% qadında və 88,4±4,9% kişidə nəzərə çarpmışdır. Allergiyanın əlamətləri 37,2±7,4% kişidə və 79,3±4,4% qadında müşahidə edilmişdir. Mədə-bağırsaq yolunun disfunksiyalarının müxtəlif əlamətləri çox vaxt kişilərdə qeyd edilmişdir, nəinki qadınlarda- 83,7±4,4% və 63,4±4,4%. Beləliklə, klinik mənzərəsində zəiflik, allergik əlamətlər, distrofik pozğunluqların əlamətləri kimi şikayətlər çox vaxt qadınlarda müşahidə edilmişdir, nəinki kişilərdə ($p<0,05$). MBY-nin disfunksiyası ilə əlaqədar səslənən şikayətlər kişilərdə daha çox müşahidə edilmişdir ($p<0,05$). 96 (76,8±3,8%) xəstədə abdominal ağrı sindromu nəzərə çarpmışdır. Çox vaxt «uçan ağrılar» müşahidə edilmişdir, onlar yeməkdən asılı olmayaraq dövri şəkildə meydana çıxmışlar. Bir qayda olaraq, bu ağrılar 32 (25,6±3,8%) hallarda konkret lokalizasiyası olmayan və ya 24 (19,2±3,6%) halda göbəyin ətrafında yerləşmişlər. Belə ağrılar dərmansız öz-özünə və ya spazmolitiklərin qəbulu fonunda yox olmuşlar. Həmçinin xəstələrin 14 (11,2±3,6%) halda epiqastral nahiyədə, 16 (12,8±3,8%) halda sağ qabırğaaltı nahiyədə, 12 (9,6±3,1%) halda - qarnın aşağısında yerləşmiş ağrılar narahat etmişlər. İştahanın pozulması 25 (20,0±4,3%) xəstədə nəzərə çarpmışdır ki, o da müəyyən qida məhsullarının istifadəsinin azalması və onların seçici olaraq qəbul edilməsi ilə özünü biruzə vermişdir. Ürəkbulanma, ağızda acılıq hissiyyatı 17 (13,6±3,2%) halda müşahidə edilmişdir. 13 (10,0±2,7%) xəstədə qaşınma və ya arxa dəlik nahiyəsində qızartı (anal ekskoriasiya) nəzərə çarpmışdır. 12 (9,6±3,1%) halda xəstələr tüklərin nazilməsi və töküməsi, dırnaqların qırılmasından şikayət etmişlər. 12 (9,6±3,1%) xəstədə immunitetin ümumi zəifləməsi əlamətləri: tez-tez xəstələnmə, residiv verən konyunktivitlər, stomatitlər, dərinin və selikli qişaların irinli xəstəlikləri qeyd olunmuşdur. 18 (14,4±3,2%) xəstədə qaraciyərin böyüməsi, 12 (9,6±3,1%) halda isə limfa düyünlərinin böyüməsi aşkar edilmişdir. Klinik-laborator göstəricilərin təhlilinin və endokrinoloqun verdiyi rəyin əsasında 20,0±4,3% xəstədə hipotireoz diaqnozu qoyulmuşdur.

Qanın ümumi müayinəsinin təhlili zamanı bizim məlumatlara əsasən müalicədən əvvəl hemoqlobinin göstəricilərinin azalması 38 xəstədə (30,4±4,1%) müəyyən edilmişdir. Hemoqlobinin göstəricilərinin azalması qadınlarda daha çox (32,9±5,1%) nəzərə çarpmışdır, bu göstərici kişilərdə aşağı (25,6±6,6%) olmuşdur. Sidiyin ümumi müayinəsində normadlan kənara çıxmalar aşkar edilməmişdir. Qanın bimokimyəvi müayinəsində əhəmiyyətli dəyişiklikilər aşkar edilməmişdir.



Şək.1. Askaridozun bağırsaq mərhələsi ilə xəstələrdə müalicədən əvvəl disbakteriozun aşkar edilməsi tezliyi (n=72)

Yoğun bağırsağın mikroflorasının müayinəsi 72 xəstədə (57,6±6,4%) həyata keçirilmişdir. Cəmi 138 nəcis nümunəsi müayinə olunmuşdur, onlardan müalicədən əvvəl – 64 müayinə, aparılan müalicədən sonra- 74 müayinə aparılmışdır. Müayinə olunan xəstələrin sırasına mədə-bağırsaq yolunun zədələnməsinin klinik simptomları olmayan 27 şəxs və bağırsaq disfunksiyası olan 45 şəxs daxil edilmişdir. Şək.1-də dis-bakterioz hallarının aşkar edilməsi tezliyi haqqında məlumatlar təqdim edilmişdir.

Cədvəl 2-də təqdim edilmiş məlumatlara əsasən qeyd etmək olar ki, şərti-patogen enterobakteriyalar (ŞPE)12,5±3,8% nümunədə, protey- 6,9% nümunədə aşkar edilmişdir. Hemolitik stafilokokların (37,5±5,7% nümunə) və mayayabənzər Kandida cinsi göbələklərinin (38,9±5,6%) kifayət qədər tez-tez aşkar edilməsi diqqəti cəlb edir.

Bu məlumatları təhlil edərək qeyd etmək lazımdır ki, askaridozun bağırsaq mərhələsi olan böyük yaşlı xəstələrdə 38,6±5,6% halda tamdəyərli bağırsaq çöpünün sayının dəyişilməsi nəzərə çarpmışdır.Tamdəyərli bağırsaq çöpünün sayının artmasını biz 12,2±3,8% nümunədə təyin etmişik. Tamdəyərli bağırsaq çöpünün sayının azalması 26,4±5,2% nümunədə qeydə alınmışdır. Bağırsaq çöpünün fermentativ aktivliyini müayinə etdikdə biz aşağıdakı dəyişiklikləri aşkar etmişik- 19,5±4,7% müayinə olunmuş nümunədə fermentativ aktivlik azalmışdır, digər hallarda isə bağırsaq çöpünün normal fermentativ aktivliyi qeydə alınmışdır. Hemolitik aktivliyə malik olan patoloji dəyişilmiş bağırsaq çöpü xəstələrin təqribən yarısında (50,0±5,8%) qeydə alınmışdır.

Cədvəl 2

Askaridozun bağırsaq mərhələsi ilə xəstələrdə müalicədən əvvəl yoğun bağırsağın mikroflorasının xarakteristikası (n=72)

Dəyişikliklərin xarakteri	Mikrofloranın müxtəlif dəyişikliklərinin aşkar edilməsi tezliyi	
	Müt.	%
Tamdəyərli bağırsaq çöpü: - normal sayı - aşağı sayı - yüksək sayı	 45 19 8	 61,4±5,7 26,4±5,2 12,2±3,8
Şərti-patogen enterobakteriyaların xüsusi çəkisinin artması	9	12,5±3,8
Kokların xüsusi çəkisinin artması	23	31,9±5,4
Süd-turşu bakteriyaların sayının azalması	16	22,2±4,8
Fermentativ çatışmazlığı olan bağırsaq çöpü	14	19,5±4,7
Bifidofloranın azalması	33	45,8±5,8
Hemolitik stafilokokkun olması	27	37,5±5,7
Hemolitik bağırsaq çöpü	36	50,0±5,8
Psevdomonas cinsi mikrobları	5	6,9
Proteyin aşkar edilməsi	5	6,9
Kandida cinsi mayayabənzər göbələkləri	28	38,9±5,6

Yeni texnologiyalar cərrahlığına qədərki dövrdə böyrəyin şiş xəstəliklərinin yeganə cərrahi müalicəsi üsulu böyrəyin böyrəküstü vəzi ilə birgə ekstrafassial xaric edilməsi – NE hesab olunurdu. NE sadə, radikal və hissəvi olmaqla 3 qrupa ayrılır. Sadə NE zamanı yalnız zədələnmiş böyrək çıxarılır. RNE-ya böyrəkdən əlavə ətraf piy toxuması, Herot fassiyası, böyrəküstü vəzi, sidik axarının kranil hissəsi, regional limfa düyünlərinin xaric edilməsi səviyyəsində genişləndirilmiş əməliyyat aiddir [4]. Hissəvi rezeksiya zamanı böyrək toxumasının yalnız zədələnmiş hissəsi digər hissələrinə və ətraf toxumalara əsrgəyici yanaşmaqla xaric olunur [5]. Radikal NE-nın "qızıl standart" əməliyyat kimi icra edilmə tezliyi bir sıra obyektiv səbəblərdən azalmağa doğru gedir. Anagəlmə tək böyrəkdə və ya nefrektomiyadan sonra qalmış böyrəkdə və ya funksiya etməyən bilateral böyrəkdə şiş xəstəliyi məcburi (imperativ) əməliyyatların, yəni konservativ urocərrahiyyənin meydana çıxmasına və təkmilləşməsinə əsaslar yaratdı. Bu əməliyyatların nəticələri gözlənildiyindən də uğurlu oldu [6,7].

1950-ci ildə Vinsent Vermooten xərçəngə görə konservativ cərrahiyyəyə göstərişlər haqqında məlumat verdi. O, histoloji böyümə modeli nəzərə alınmaqla əksər kiçik şəffaf karsinomaları lokal rezeksiyaya göstəriş hesab etdi. Həmin ildə bu müəllif ilk dəfə NE əməliyyatına alternativ kimi nefronqoruyucu əməliyyatları (NQƏ, ingilisdilli elmi ədəbiyyatda Nephron sparing surgery (NSS)) əsaslandırdı "... xəstənin vəziyyətinin yaxşı olduğu zamanı hətta bədxassəli şişlər zamanı və ya uremiya ilə nəticələnmə ehtimalı yüksək olduğu hadisələrdə NE icra etmək mənasızdır. Hesab edirəm ki, metastazlaşma halları olmadıqda

böyrək qabığının kiçik şişlərinin xaric edilməsi yetərlidir. Belə əməliyyatın icrası həmişə məqsədə müvafiqdir" [8].

Keçən əsrin ortalarından başlayaraq nefronqoruyucu əməliyyatlar (NQƏ) seçilmiş xəstələrdə seçim əməliyyatı hesab edilir. Sonralar NQƏ-ın əhəmiyyəti Robson et al. tərəfindən mübahisə obyektinə çevrildi. Bu müəlliflər əks böyrəyin normal olduğu hadisələrdə uzun illər lokal xərçəngə götə RNE-nın tərəfdarları kimi çıxış etdilər. Bu dövrdə RNE hətta kiçikhəcmli qabıq törəmələrinin cərrahlığında seçim metodu hesab edilirdi [9]. Lakin son 2-3 onilliklərdə əksər mərkəzlərdə və uroloji şöbələrdə, xüsusilə kiçikhəcmli şişlərin cərrahlığında NQƏ-ların tətbiq dairəsi xeyli artmışdır [10-13]. RNE-nın, o cümlədən sadə NE-nın OSƏ-ları ilə müqayisədə üstünlüklərinin bu günə qədər sübut edilməməsi sonuncu əməliyyatlara marağın və onların tətbiq dairəsinin artmasına stimul yaradır. Nəticədə rezeksiyaların və konservativ rezeksiyaların payı çoxalır.

Yeni diaqnostik vizualizasiya üsullarının meydana çıxması, şişin erkən diaqnostikası məsələsinin həlli istiqamətində qazanılmış uğurlar, parenximatoz üzvlərdə kəsmə-ayırma texnologiyalarının (CUSA - kavitasiyalı ultrasəs-aspurasiya, arqonlu koaqulyator, LigaSure, təzyiqli su şırnağı (Water Jet), plazma və lazer skalpelləri və b.) inanılmaz tərəqqisi, mükəmməl intraoperasion hemostatik üsulların, süngərlərin, bioloji yapışqanların (Tissel, Tachokomb), atravmatik, presizion tikiş vasitələrinin, miniinvaziv cərrahi texnologiyaların (laparoskopik, lümboskopik, robotik) təkmilləşməsi NQƏ-ın icra tezliyini, müddətlərini, təhlükəsizliyini və keyfiyyətini yüksəltdi, ən əsası bu əməliyyata göstərişlərin dairəsini xeyli genişləndirdi [14-21]. Müasir mərkəzlərdə və ixtisaslaşmış şöbələrdə bu əməliyyatların əməliyyatdaxili Doppler-USQ təqibi altında icra edilməsi, şiş toxumasının böyrəkdaxili və xarici damarlara, sinirlərə, sidik yollarına və ətraf orqanlara, mühüm anatomik strukturlara invasiya səviyyəsini müəyyən etməyə, həmin strukturların müdafiəsi şəraitində əməliyyatın sağlam toxuma hüdudlarında aparılmasına və uğurla tamamlanmasına böyük imkanlar açmışdır. Bu müayinə multifokal proseslər zamanı əməliyyatın həcminin artırılması və ya onun RNE ilə əvəzlənməsi üçün mühüm informasiyaları əldə etməyə şərait yaradır. Şişin psevdokapsul ilə əhatə olunması (USM və ya MRT müayinələri ilə dəqiqləşdirilmiş) NQƏ-ın icrası üçün həlledici meyarlardandır. Hətta kapsulətrafı düyünlər əməliyyatın həcminin genişləndirilməsinə, daha radikal əməliyyatlara keçilməsinə əsaslar vermir. Ədəbiyyat məlumatlarına görə kiçik şişlərin psevdokapsullaarı 85% hallarda intakt olur, yalnız 15% xəstələrdə mikroperforasiyalar aşkar edilir. Şiş toxuması ilə bilavasitə təmasda yerləşən satellit düyünlər bəzi halalarda residivləşməyə meylli olurlar. Belə hallarda enukleorezeksiya səviyyəsində əməliyyatın ablastikliyini və radikallığının artırılması, çıxarılmış toxumanın sərhədlərinin ekspres-histologiyası tələb olunur [22,23].

OSƏ və ya NQƏ-ın məqsədi böyrəyin potensial zədələnmiş (o cümlədən şiş toxuması ilə) və funksiya etməyən hissəsini sağlam toxumalar sərhədlərində maksimal xaric etmək, mümkün səviyyədə funksional nefronların saxlanılmasıdır. Böyrəyin tam çıxarılması əhəmiyyətli, lakin sağlam, funksiya edən böyrək toxumasının yaxınlıqdakı sağlam toxumalarla birgə xaric edilməsi əksər xəstələrin həyatı üçün taleyüklü ola bilər. Xüsusilə tək böyrəyin və hər 2 böyrəyin şişlə zədələnmələri, von Hyppel-Lyndow xəstəliyi, böyrək funksiyalarının tam itməsi ehtimalı yüksək olan xəstəliklərdə nefronqoruyucu əməliyyatların əhəmiyyəti artır [24-26].

Şiş böyrəyin konservativ cərrahiyyəsinin aşağıdakı variantları ayırd edilir: enukleasiya, enukleorezeksiya (excavatio по Van Poppel, 2010 [27]), pazvari rezeksiya, seqmentar qütb rezeksiyası, frontal rezeksiya, heminefrektomiya, böyrəyin ekstrakorporal rezeksiyası və autotransplantasiyası.

Ficcara V. et al. (2004) məlumatlarına görə son 20 ildə böyrəyin təsadüfi tapılmış simptomsuz şişlərinin tezliyi 52-dən 73%-ə qədər artmışdır. 4 sm-ə qədər ölçüləri olan böyrək şişlərinin ən yeni vizualizasiya metodlarının geniş tətbiqi hesabına 33,6-dan 52,1%-ə çatmışdır [28]. Любарская Ю.О. (2006) tədqiqat işinə yalnızz simptomsuz gedişli 4 sm-ə qədər ölçülü böyrək şişləri olan xəstələri daxil etmiş, onlar üzərində əlverişli nəticələrlə tamamlanan NQƏ yerinə yetirmişdir [29].

Hissəvi rezeksiya əməliyyatlarına göstərişlərə anatomik və ya funksional yeganə böyrək, xroniki böyrək xəstəliyi və hər iki böyrəyin şiş xəstəliyi aid edilir. Uzunmüddətli tədqiqatlarla RNE-nın hissəvi rezeksiya əməliyyatlarının nəticələri ilə müqayisəsi aparılmış, ikinci əməliyyatın üstünlükləri (qalmış böyrək toxumasının funksiyasının davam etməsi, postoperasion letallığın azalmasına səbəb olur) müəyyən edimiş, yaşam müddətlərində və həyat keyfiyyətində ciddi fərqlər olmamışdır [30].

Klinik tövsiyələrdə T1a-bN0M0 mərhələlərində böyrək şişlərində NQƏ əməliyyatlarının tövsiyə edilməsinə baxmayaraq, irəli mərhələlərdə, hətta T3 mərhələsində və daha iriölçülü şişlərin operativ cərrahlığında da bu əməliyyatların yerinə yetirilməsinin tərəfdarıarı az deyildir [31]. Müəyyən edilmişdir ki, T1a və T1b mərhələlərində RNE və NQƏ-nın onkoloji nəticələri identikdir [32]. Lakin 7 sm-dən böyük şişlərə görə NQƏ-ın nəticələrinə dair randomizə olunmuş tədqiqatlar aparılmamışdır [33,34].

Bəzi klinikalarda böyrək rezeksiyası əməliyyatlarının icra tezliyi 31%-ə çatır [33]. 20 il müddətində NQƏ-ın icra tezliyi 6,6%-dən (1984) 41,1%-ə qədər (2004) artmışdır [28].

Bilateral sağlam böyrək fonunda böyrəyin şişinə görə NQƏ-nın yerinə yetirilməsi məsələsi mübahisəlidir Bəzi müəlliflər daha irəli gedərək elektiv göstərişləri ümumiyyətlə qəbul etmirlər [35, 36]. Digərləri qeyri-şiş xəstəliklərinə görə NQƏ-na göstərişləri nisbi-göstərişlər qrupuna əlavə edirlər [37].

Avropa Uroloqlar Assosiasiyası (EAU Guidelines, 2006) elektiv göstərişlər əsasında xəstə seçiminə ciddi yanaşma tövsiyə edir: <4 sm ölçülü periferik şiş, pT1a [38]. 4 sm-dən böyük, orta-medial və intraorqan şişlərdə NQƏ-nın icrası məsələsi müzakirə mövzusudur [39,40]. Əksər müəlliflərə görə T1a (4 sm-dən kiçik), hətta T1b (4-7 sm) mərhələlərində olan qabıq şişləri hissəvi rezeksiya edilməklə sağaldıla bilər [41]. Digər tədqiqatçılar şişin ölçülərindən əlavə onun lokalizasiyasını da rezektabellik meyarı kimi qəbul edirlər [42].

Аляев Ю.Г. с соавт. elmi mətbuatda tək böyrəyin və hər 2 böyrəyin şiş xəstəliklərində NQƏ-ın icrasının məqsədəuyğunluğu haqqında qızğın diskussiyaların çoxalmasını qeyd edir [43]. Əksər müəllliflər klinik təcrübələrinin azlığına baxmayaraq OSƏ-ın icrasını vacib hesab edirlər. Müəlliflər qeyd edirlər ki, tək böyrəkli və ya tək böyrəyi funksiya edən gənc xəstələrdə bu əməliyyatlar 5 ildən çox yaşam göstəricisinə görə (86%-dən çox) mütləq göstəriş hesab edilməlidir [10, 30, 44, 45]. Bütün bunlar NQƏ-a da dəqiq göstərişlərin müəyyən edilməsini stimullaşdırdı. Belə ki, Степанов В.Н. и соавт. [38] və Серегин А.В. [39] məcburi (mütləq, imperativ) və seçici (elektiv) göstərişləri ayırd edirlər. Mütləq göstərişlərə XBÇ fonunda tək böyrəyin və hər 2 böyrəyin xərçəngi, T1N0M0 mərhələsində 3 sm-dən kiçik şişlər elektiv göstərişlərə aiddir. Müəlliflər mütləq göstərişlər olduqda böyrəyin rezeksiyası, şişin enukleasiyası, elektiv göstərişlər zamanı isə yalnız rezeksiya əməliyyatları yerinə yetirilməsini tövsiyə edirlər. Son illərdə istər imperativ, istərsə də elektiv göstərişlər əsasında icra edilmiş NQƏ-nın nəticələri haqqında xeyli miqdarda klinik təcrübələrin məlumatları dərc olunmuş, onların nəticələri müqayisəli surətdə, həmçinin "qızıl standart" - RNE ilə müqayisədə öyrənilmişdir. F. Steinbach et al. [26] 21 illik təcrübəsi əsasında imperativ və elektiv qrupa aid 140 xəstənin NQƏ-nın mühüm nəticələrni təqdim etmişdir. 5 illik yaşama imperativ qrupda 84,5, elektiv qrupda 96% təşkil etmişdir. Türk alimi A. Kural et al. [11] şişlərin lokalizasiyasına, ölçülərinə, inkişaf xarakterinə, əməliiyat və işemiya müddətlərinə görə bir-birindən fərqlənməyən xəstələri imperativ və elektiv göstərişlərə görə əməliyyat etmişdir. Əməliyyatdan sonrakı ağırlaşmalar imperativ qrupda daha çox rast gəlmişdir. Ümumi və kanserspesifik yaşama elektiv qrupda (100% və 100%) imperativ qrupdan (85% və 95%) yüksək olmuşdur.

Enukleasiyaya göstərişlərə 5 sm-ə qədər ölçüləri olan, daha çox ekstrarenal yerləşən, satellit düüyünləri olmayan kapsulllu şişlər aid edilir. Bu əməliyyat böyrəyin qan təchizatının müvəqqəti dayandırılmasını tələb etmir. Böyrəyin müxtəlif seqmentlərindən şişlərin enukleasiyasını etmək mümkündür. M. Carini et al. [40] 71 xəstədə 4-7 sm ölçülü şişlərin enukleasiyasının nəticələrini təqdim etmişdir: 5- və 8-illik kanserspesifik yaşama müddəti 85,1% və 81,6% olmuşdur. 74 ay müddətində 14,9% xəstələrdə şiş proqressivləşmişdir. W. Morgan et al. [41] enukleasiya və rezeksiya əməliyyatlarının nəticələrinin müqayisəli öyrənmişlər: residivsiz 5-illik yaşama müddəti hər 2 qrupda bir-birinə çox yaxın olmuşdur (94,6±3,9 və 93,3±4,7%). Enukleorezeksiya bu əməliyyatların müştərək variantıdır, düyünlə birgə ətraf toxuma sağlam toxuma həddlərində (0,3-1,0 sm qalınlığında) rezeksiya edilir. Bu texnika da sadədir, şişin istənilən lokalizasiyasında yerinə yetirilir. Lakin xaric edilməli ətraf toxumanın qalınlığı məsələsi bu günə qədər diskutabeldir. Lakin Akçetin Z. et al. çıxarılmış ətraf toxumanın qalınlığı ilə yaşama müddəti arasında asılılıq müəyyən etməmişdir [42].

NQƏ əksər hadisələrdə böyrək toxumasının qansızlaşdırılması, böyrək damarlarının müvəqqəti sıxılması, isti işemiyası şəraitində yerinə yetirilir. Böyrək toxuması, böyrək kanalcıqları və nefronların isti işemiyaya qarşı həssaslığı əməliyyat texnikasının təkmilləşdirilməsini və onun icra müddətlərinin qısaldılmasını tələb edir. Ümumi qəbul edilmiş isti işemiya müddəti 20 dəqiqədir. Adətən geniş diopazonda 11 – 28 dəq müddətlərində və daha çox (30-40, hətta 55 dəq) dəyişir [44-46] . İsti işemiya müddətinin 20-dəqiqədən artıq davam etdiyi hadisələrdə böyrək toxumasının buzla soyudulması əməliyyat müddətlərinin artırılmasına şərait yaradır. Lakin böyrək soyudulması prosedurunun istisnasız olaraq hissəvi rezeksiya əməliyyatlarında aparılması tövsiyə edilir [47].

Böyrək seqmentlərində əməliyyatlar zamanı həmin seqmentlərin arteriyalarının seçici sıxılması daha məqsədəuyğundur. Bu variantda böyrəyin digər, əməliyyatdankənar hissələrinin qan təchizatı qorunur. Lakin damarların sıxılmaması ilə də rezeksiya üsulları mövcuddur [48].

İntraoperasion Doppler-USQ həmin damarların vizualizasiyasını və identifikasiyasını təmin edən ən səmərəli əməliyyatdaxili müayinə üsuludur. Belə taktika hətta böyrək venasına invaziya etmiş şişlərin NQƏ hüdudlarında xaric edilməsinə imkan verir.

Tək böyrəkdə xərçənglə bağlı OS və ya NQ əməliyyatların uzaq nəticələrinin öyrənilməsi zamani məlum oldu ki, 74,5 aylıq müşahidə zamanı 5 illik yaşama 88,7% təşkil etmişdir [10]. NQƏ-a imperativ göstərişlərin müəyyən edilməsində kontraletaral sağlam böyrəkli xəstələrdə elektiv göstərişlərin işlənilməsi böyük yardım etdi. Hazirda NQƏ-a göstərişlərin dairəsi sürətlə genişlənməkdədir. Şişin ölçülərinin 4 sm-ə qədər olması, periferik lokallaşmış şişlər, aşağı dərəcəli bədxassəli xüsusiyyəətlərə malik və klinik təzahür etməyən şişlər, damarlara, sinirlərə və ətraf toxumalara invaziya etməyən şişlər NQƏ-a göstərişlər siyahısındadırlar. Son 20-30 ildə NQ cərrahlığın inkişaf səviyyəsi və əhəmiyyəti daha da artmaqda davam edir. Yeni tədqiqatların birində NQƏ-dan sonra 5-illik yaşama 100%, RNE-dan sonra isə 97% olması müəyyən edilmişdir [49]. Bu günə qədər böyrəyin fəaliyyətini saxlanılması üçün icra edilmiş əməliyyatlarda şişin optimal ölçülərinin həcmi haqqında birmənalı fikirlər irəli sürülməmişdir.

Gerald H.J. Mickisch lokal böyrək şişlərində böyrəyin ekstrakorporal rezeksiyasını və sonrakı autotransplantasiyasının yerinə yetirilməsini məqsədəuyğun hesab edirlər. 1992-2000-ci illərdə Erazmus Tibb Mərkəzində (Rotterdam, Hollandiya) 21 belə əməliyyat yerinə yetirilmişdir. Rezeksiya əməliyyatları keçirmiş 244 xəstədən 21-də). Əməliyyata mütləq göstərişlərə yeganə böyrəyin və hər 2 böyrəyin şiş xəstəliklərini və ya son dövr böyrək çatmazlığını aid edirlər. Çixarlmış böyrək buzlu su olan qaba yerləşdirilir, şişgəzdirici hissə sağlam hədlərdə rezeksiya olunur, qalmış böyrək hissəsinin rekonstruksiyası aparılır. Şişin ekstrakorporal rezeksiyasından sonra xəstələr hemodializ seansları qəbul edirlər. Histoloji müayinələrdən və verifikasiyadan sonra (şəffaf hüceyrəli xərçəng -32, papilyar xərçəng-3, xromofob tip adenokarsinoma-1; pT1, pN_0- pT3a,pN_0 histomərhələləri) həmin böyrəyin funksional dəyərliliyi qəbul edilərsə autotransplantasiya aparılır. Bu əməliyyatdan sonra residivləşmə səviyyəsi 8,2%-dir, böyrək funksiyasının saxlanması 98%-ə, 5-illlik yaşama 93%-ə çatır [50]. G.H.J. Mickisch 2001-2006-cı illəri əhatə edən dövrdə 2 tibb Mərkəzində (Erazmus, Hollandiya və Bremen, Almaniya) 36 xəstədə bu əməliyyatı yerinə yetirmiş, yalnız 2 xəstədə ekstrakorporal rezeksiyadan sonra qalmış böyrək şiş hüceyrələrinin aqressiv tipoloji variantlarına görə transplantasiya üçün yararsız hesab edilmişdir. Əməliyyatın 5-ci günündə 1 xəstə miokard infarktından ölmüş, 1-də uğursuz autotransplantasiyaya görə böyrək çıxarılmış, 1-də isə böyrək çatmazlığının reqressiyasına qədər 3 həftə ərzində hemodializ aparılmışdır. 13 aydan sonra 1 xəstədəyerli həqiqi residiv inkişaf etmişdir. 1 xəstədə 1 il sonra uzaq metastaz müəyyən olunmuşdur.

11 mərkəzdə elektiv göstərişlərlə NQƏ-dan sonra 388 xəstədən yalnız 3-də yerli residiv, onlardan 2-də rezeksiya xəttində inkişaf etmişdir [51]. Elektiv göstərişlərlə NQƏ-dan sonra yerli residivləşmə tezliyi (0,8%) mütləq göstərişlər əsasında icra edilmiş OSƏ-ların eyni göstəricisindən 10 dəfə az olmuşdur. Yəni, qənaətbəxş posoperasion göstəricilər əməliyyat üçün xətələrin diqqətli seçimindən çox asılıdır.

Bəzi müəlliflərə görə bu şişlərə görə rezeksiya olunmuş xəstələrin 71%-də yerli və ya uzaq residivlər baş vermir və bu səbəbdən NQƏ əməliyyatları özünü doğruldur [59]. Lakin bu xəstələrdə ürək-damar, şəkərli diabet və b. xəstəliklərlə bağlı XBÇ-nın əmələgəlmə ehtimalı unudulmamalıdır [31]. Алексеева Г.Н. и др. görə (2015) NQƏ-dən sonra ağırlaşmalar 10,4% (NE – 4,7%), 5-illik yaşama -89,1% (NE - 70,6%; p=0,248). Bu səbəbdən müəlliflər NE ilə daha effektli və təhlükəsiz metod kimi NQƏ-ların istifadəsinin artırılmasıının tərəfdarlarıdırlar [33].

NQƏ əməliyyatlarından sonra limfodisseksiyanın aparılması və ya aparılmaması məsələsi də hələlik həllini tapmamışdır. Son illərdə həttaa I-II mərhələlərdə histoloji dəyişikliksiz (pre- və intraoperasion) şişlərdə limfodisseksiyaya skeptik yanaşma artmışdır. 7 sm-dən böyük şişlərdə (T3) yaxın limfa düyünlərinin patoloji prosesə çəlb olunma tezliyi 10–20 % arasında dəyişir [52].

ƏDƏBİYYAT

1.Simon G. Chirurgie der Nieren // Surgery of the kidneys, v.2, p.1871-1876

2. Wells T.S., Bt FRCS (1818-97) and his contributions to naval medicine // J Med Biogr., 2007, v.15(2), p.63-67

3.Czerny V. Ueber nierenextirpation bietr // Klin Khirurg, 1890, v.6, p.485

4.Бухаркин Б.В., Давыдов М.И., Карякин О.Б. и др. Клиническая онкоурология. М., 2003,. с. 24-26

5.Ke-Hung T., van Ophoven A., Shvarts O., Belldegrun A. Nephron-Sparing Surgery for Renal Cell Carcinoma // Rev Urol., 1999, v.1(4), p.216-225

6.Villani U., Pastorello M. Conservative surgical treatment of renal carcinoma. Personal experience with 29 surgical excisions of tumors //Arch Ital Urol Nefrol Androl., 1991, v.63, p.57-64

7.Karellas M. E., O'Brien M. F., Jang T. L. et al. Partial nephrectomy for selected renal cortical tumours of 7 cm // BJU Int., 2010, v.106, № 10, p. 1484-1487

8.Vermooten V. Indications for conservative surgery in certain renal tumors, a study based on the growth pattern of the clear cell carcinoma //J Urol. 1950, v.64, p.200

9. Robson C.J., Churchill B.M., Anderson W. The results of radical nephrectomy for renal cell carcinoma // J Urol., 1969, v.101, p.297

10.Лопаткин Н.А., Яненко Э.К., Борисик В.И., Сафаров Р.М. Органосохраняющие операции при опухолях почек. Пленум Всероссийского общества урологов / Тез. докл. Кемерово, 1995, с. 88-89

11.Fergany A.F., Hafez K.S., Novick A.C. Long-term results of nephron surgery for localized renal cell carcinoma, 10-year followup //J Urol., 2000, v.163, p.442-445

12.Kural A.R., Demirkesen O., Onal B. et al. Outcome of nephron-sparing surgery, elective versus imperative indication // Urol Int., 2003, v.71, p.190-196

13.Gruschwitz T., Shubert J., Wunderlich H. Lasergestützte partielle Nephrektomie beim Nierenzellkarzinom / Der. Urologe. 2008, v.47, № 9. p.1173-1174

14.Ашрафов А.А., Байрамов Н.Ю., Меликова М.Д. Современные методы рассечения паренхимы печени //Анналы хирургической гепатологии, 2000, №5, с.54-60

15.Kotan Ç., Bayramov N.Y., Rzayev T.M., Taş A., Abbasov U. Diameter and pressure of the water-jet for liver resection // Easteren Journal of Medicine, 2001, v.6(2), p.43-47

16.Bayramov N.Y., Sultanov H.A., Rzayev T.M. Qaraciyərin rezeksiya üsullarının üstün cəhətləri və qüsurları //Kimya, Biologiya, Tibb. 2000, N1, s.86-96

17.Butskiy O., Wiseman S.M. Electrothermal bipolar vessel sealing system (LigaSure) for hemostasis during thyroid surgery, a comprehensive review //Expert Rev Med Devices, 2013, v.10(3), p.389-410

18.Erdem M.R., Tepeler A., Gunes M. et al Laparoscopic Decortication of Hilar Renal Cysts Using LigaSure // JSLS. 2014, v.18(2)

19.Weibl P., Shahrokh F. Shariat, Klatte T. Partial nephrectomy driven by cavitron ultrasonic surgical aspirator under zero ischemia, a pilot study //World Journal of Urology, 2015, p.1569-1575

20.Reich O., Schneede P., Meseddi A. et al. Argon Plasma Coagulation (APC) for Endo-Urological Procedures, Ex-Vivo Evaluations of Hemostatic Properties //European Urology, 2003, v.44, p.272–276

21.Pupka A., Chudoba P., Barc P. et al. Intraoperative hemostasis during kidney transplantation and the use collagen mesh dressing covered by fibrin glue (TachoComb) // Polim Med., 2003, v.33(3), p.27-32

22.Матвеев Б.П. Опухоли почечной паренхимы / Клиническая онкоурология. Под ред. Б.П. Матвеева. М., АБВ-пресс, 2011. с. 11-225

23.Переверзев А.С. Хирургия опухолей почки и верхних мочевых путей. Харьков, 1997, с.277-280

24.Волкова М.И. Обзор материалов ежегодного конгресса Американской урологической ассоциации (20-25 мая 2006 г.) //Онкоурология, 2006, №4, с.71

25. Weight C.J., Lieser G., Larson B.T. et al. Partial nephrectomy is associated with improved overall survival compared to radical nephrectomy in patients with unanticipated benign renal tumors //Eur Urol 2010, v.58, p.293-8.

26. Аполихин О.И., Чернышев И.В., Павлов Д.А. и др. Тенденции развития эндовидеохирургии локализованного рака почки / Мат. XIV конгресса РОУ. Саратов, 2014, с 247–248

27. Steinbach F., Stöckle M., Müller S.C. et al. Conservative surgery of renal cell tumors in 140 patients, 21 years of experience // J Urol., 1992, v.148, p.24-30

28. Van Poppel H. Efficacy and safety of nephron-sparing surgery // Int. J. Urol., 2010,. v.17. p.314-326

29. Ficcara V., Novara G., GalfanoA. Walter Artibani Neoplasm staging and organ-confined renal cell carcinoma, a systematic review //European Urology, 2004, v. 46, p.559-564

30. Любарская Ю.О. Значение функционального состояния почек в выборе метода органосохраняющего лечения больных с опухолями почек: Автореф. дисс. ... к.м.н. Саратов. 2006,146 с.

31. Переверзев А.С. Выбор органосохраняющей операции при опухолях почек. Пленум Всероссийского общества урологов /Тез. докл. Кемерово, 1995, с. 107-109

32. Аль-Шукри С.Х., Е. С. Невирович, Г. Б. Лукичев, Ю. А. Суханов Резекция опухоли почки стадии T3aN0M0 // Урологические ведомости, 2012, №1, с.38-41

33. Алексеев Б.Я., Калпинский А.С., Нюшко К.М. и др. Анализ непосредственных результатов органосохраняющего лечения у больных раком почки, сравнение лапароскопической резекции почки с резекцией почки открытым способом / Мат. VII конгресса РООУ. М., 2012. с.132-133

34. Bratslavsky G. Argument in favor of performing partial nephrectomy for tumors greater than 7 sm //Urol Oncol., 2011, v29, № 6, p.829–832

35. Long C. J., Canter D. J., Kutikov A. et al. Partial nephrectomy > 7 sm, technical, oncological and functional outcomes for renal masses //BJU Int., 2012, v 5, p.14.

36. Горячев И.А. К вопросу об органосохраняющих операциях при опухолях почки. Пленум Всероссийского общества урологов / Тез. докл. Кемерово, 1995. с. 67

37. Голубчиков В.А., Дубровин В.Н. Энуклеация- как альтернативный метод оперативного лечения опухоли почки. Пленум Всероссийского общества урологов / Тез. докл. Кемерово, 1995, с. 62-63

38. Степанов В.Н., Колпаков И.С., Серегин А.В. Консервативная хирургия при опухолях почек. Материалы 3-й Всероссийской научной конференции с участием стран СНГ. М., 1999, с. 151-158

39. Серегин А.В. Органосохраняющие операции при раке почки. Автореф. дис. … докт. мед. наук. М., 2002

40. Carini M., Minervini A., Lapini A. et al. Simple enucleation for the treatment of renal cell carcinoma between 4 and 7cm in the greatest dimension, progression and long-time survival //J Urol., 2006, v.175(6), p.2022-2026,

41. Morgan W.R., Zincke H. Progression and survival after renal-conserving surgery for renal cell carcinoma, experience in 104 patients and extended followup //J Urol. 1990, v.144, p.852-858

42. Akçetin Z, Zugor V, Elsässer D, et al. Does the distance to normal renal parenchyma (DTNRP) in nephron-sparing surgery for renal cell carcinoma have an effect on survival? // Anticancer Research. 2005, v.25(3A), p.1629–1632

43. Аляев Ю.Г., Глыбочко П.В., Григорян З.Г. Органосохраняющие операции при опухоли почки. М., ГЭОТАР-Медиа, 2009, 272 с.

44. Биленко М.В. Ишемические и реперфузионные повреждения органов. М., 1989. с. 11-37

45. Becker F., Van Poppel H., Oliver W. et al. Assessing the Impact of Ischaemia Time During Partial Nephrectomy //Eur. Urol. 2009, v 56, p. 625-635

46. Choi J. D., Park J. W., Lee S.Y. et al. Does prolonged warm ischemia after partial nephrectomy under pneumoperitoneum cause irreversible damage to the affected kidney? //J. Urol. 2012, v 187, № 3. p. 802–806

47. Amit R., Patel A.R., Eggener S.E. Warm ischemia less than 30 minutes is not necessarily safe during partial nephrectomy, every minute matters //Urol Oncol., 2011, v.29(6), p.826–828

48. Khed M., Bellec L., Leobon B. et al. Partial nephrectomy by selective renal parenchymal clamping using a new clamp // Prog Urol., 2007, v.17(1), p.41-44

49. Huang W.C., Levey A. S., Serio A. M. et al. Chronic kidney disease after nephrectomy in patients with renal cortical tumours, a retrospective cohort study //Lancet Oncol., 2006, v 7, p.735-740

50. Mickisch GHJ, Garin A, van Poppel H, Prijck L de , et al for the EORTC Genitourinary Group

Radical nephrectomy plus interferon-alfa-based immunotherapy compared with interferon alfa alone Lancet (Sep), 2001, v.358, p.966-970

51. Thompson R.H., Leibovich B.C., Lohse C.M. et al. Complications of contemporary open nephron sparing surgery, a single institution experience //J Urol., 2005, v.174(3), p.855-858

52. Русаков И.Г., Алексеев Б.Я., Калпинский А.С. Лимфаденэктомия у больных раком почки //Онкоурология, 2006, №3, с.19-24

Резюме

Нефронсберегающая хирургия: преимущества, успехи, недостатки и спорные вопросы

С.Б. Имамвердиев, С.Б.Мехтиев

В обзорной статье широко освещены история развития нефронсберегающей хирургии опухолевых и неопухолевых заболеваний почки, в частности о частоприменяемых в клинической практике вариантов элективных и императивных (вынужденных) органосохраняющих операций. Обобщены показания и противопоказания к их выполнению, преимущества и недостатки по сравнению с радикальными и радикально расширенными операциями в почке. Кроме того, представлены нерешенные, дискуссионные и спорные вопросы консервативной ренальной хирургии.

Summary

Nephron sparing surgery: benefits, successes, shortcomings and controversial issues

S.B. Imamverdiyev, S.B. Mehdiyev

In a review article covered extensively the history of nephron sparing surgery of tumor and non-neoplastic kidney diseases, in particular often used in clinical practice and options elective and imperative

(compelled) conserving surgery. Summarizes the indications and contraindications for their implementation, the advantages and dezadvantages in comparison with the radical and radical expansion of operations in the kidney. Also presented unresolved, debatable and controversial issues conservative renal surgery.

Daxil olub: 19.10.2016

QEYRİ-SPESİFİK XORALI KOLİTİN ETİOPATOGENEZİ, DİAQNOSTİKASI VƏ MÜALİCƏSİNİN ÖYRƏNİLMƏSİNDƏ PERSPEKTİVLİ YENİ İSTİQAMƏTLƏR

K.A. Əliyeva, M.M. Məmmədov, X.N. Musayev, N.C.İmanova, N.A. Məmmədova, A.M.Əliyeva
M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi

Açar sözlər: qeyri-spesifik xoralı kolit, diaqnostika, müalicə
Ключевые слова: неспецифический язвенный колит, диагностика, лечение
Key words: ulcerative colitis, diagnostics, treatment

Müasir baxışlara əsasən qeyri- spesifik xoralı kolit (QSXK) və Kron xəstəliyi (KX) eyni mənşəyə malik olan poligen xəstəliklər hesab olunur. Hal -hazırda müasir genetikanın səviyyəsi müxtəlif xəstəliklərə meylliliklə əlaqədar olan genlərin xüsusi axtarışını aparmağa imkan verir.Tədqiqatın başlanğıc nöqtəsi xəstələr və onların qohumlarının DNT-sidir [1,2,3,6.7.9,10]. Əlavə texniki üsulların köməyi ilə genomun və ya "namizəd genlərin" genişləndirilmiş axtarışı həyata keçirilir. Birinci üsulun üstünlüyü ondan ibarətdir ki, bu zaman hər hansı hipotezler aparılmır (cavabdeh genlərin ehtimal olunan lokalizasiyası). Lakin xəstəliyə yoluxmuş ailənin bir sıra üzvlərində muayinələrin aparılması vacibdir. Əksinə ikinci metodun tətbiqi zamanı aparılan testlərin sayı məhdud olsa da, genin ehtimal edilən loklizasiyası haqqında mulahizələrin olması tələb olunur [5,7,11,21]. Son 5 ildə Avropa, Şimali Amerika və Avstraliyada BİX (Bagirsağın İltihabi Xəstəlikləri) müşahidə edilən xəstələrin daxil olduğu qruplarda genetik tədqiqatlar aparılır [13,22]. Aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, BİX ilə xəstələnmə riski pasiyentlərin qohumları arasında 5-10% təşkil edir [11,23]. Birinci dərəcəli qohumlarda (xüsusilə də əkizlərdə) xəstəliyin inkişafetmə riski çox yüksəkdir, lakin digər sağlam qohumlar arasında BİX ilə xəstələnmə riski 5% təşkil edir. Çox vaxt xəstəliyə yoluxmuş valideynlərlə müqayisədə onların övladlarında bu xəstəliklər daha erkən dövrdə diaqnostika olunur, bu isə "genetik gözləmə" fenomeni ilə izah olunur [13,14,16,19,20,24].

Genetik tədqiqatların mürəkkəbliyinə baxmayaraq, BİX ilə 16 və 12 xromosomlarının müəyyən sahələri arasında əlaqənin olması müəyyən olunmuşdur. Avropada aparılan kiçik həcmli tədqiqatlar zamanı ilk dəfə aşkar olunan, sonra isə Avropa, Şimali Amerika və Avstraliyada daha geniş tədqiqatlarla təsdiq olunan 16-cı xromosomun perisentromer sahəsi ilə əlaqə müəyyən edilmişdir. Bu lokusun Kron xəstəliyi üçün spesifik olması teyin edilmişdir [12,13,25]. Böyük Britaniyada 12-ci xromosom ilə QSXK arasında dəqiq əlaqənin olması müəyyən edilmiş və sonrakı tədqiqatlarda bu mülahizə öz təsdiqini tapmışdır [13]. Bəzi tədqiqatlarda 3 və 7 xromosomlarında bu cür "risk zonalarının" olması haqqında fikirlər vardır, lakin növbəti mərhələlərdə bu öz təsdiqini tapmamışdır [15]. Nəticələrin təzadlılığı, ehtimal ki, metodların dəyişkənliyi, etnik cəhətdən bərabər olan nəzarət qruplarında müayinənin mümkünsüz olması və tədqiqat qruplarına daxil olan xəstələrin sayının az olması ilə əlaqədardır.

Genetik meyilliklə yanaşı, BİX- nin inkişafında ətraf mühit amillərinin da vacib rolu var. Bu faktorlardan bir qisminin xəstəliktörədici rolu kifayət qədər şübhə altında olsa da, müxtəlif analitik və ekoloji tədqiqatlar nəticəsində xəstəliyin inkişafetmə riskini artıran bir sıra amillər aşkar olunmuşdur. Bunlara aşağıdakılar daxildir: siqaretçəkmə, qidalanma vərdişləri, oral kontraseptivlərin qəbulu, orqanizmin erkən inkişaf dövrü. Fiziki aktivlik, sosial- iqtisadi status və gigiyenik amillərin rolu hal-hazırda öyrənilmə mərhələsindədir.

Qeyri-spesifik xoralı kolit (QSXK)- sistem və yerli ağırlaşmaların inkişafı ilə keçən, əsasən yoğun bağırsağın selikli qişasının və selikaltı qatının hemorragik-irinli iltihabı ilə xarakterizə olunan xroniki gedişatlı xəstəlikdir [9,14,15,16,17,18].

QSXK probleminin aktuallığına səbəb xəstəliyin klinik gedişatının ağır olması, yüksək dərəcəli əlillik və xəstələrin həyat keyfiyyətinin azalmasıdır [3,10,14,20].

Ədəbiyyat məlumatları göstərir ki, bir sıra ölkələrdə, xüsusilə də Skandinaviya və ABŞ-da QSXK xəstələrinin sayı proqressiv olaraq artır. İnkişaf etmiş ölkələrdə hər il 100 000 əhalidən 4-dən 20-yə qədər insan QSXK xəstəliyinə düçar olur. Avropada 100 000 əhalidən 40117-si qeyri- spesifik xoralı kolitdən əziyyət çəkir [1,18]. Qeyri-spesifik xoralı kolitin ağır və fəsadlaşmış formaları olan xəstələrin sayı artmaqdadır [6,7,9]. QSXK zamanı bağırsaq ağırlaşmalarının sayı 20%, letallıq isə 3,4%-dən 6,4%-ə qədər təşkil edir [1,3,9,15,17]. Əksər müəlliflərin fikrincə, ağır fəsadların rastgəlmə tezliyinin artması və yüksək letallıq göstəricilərinin əsas səbəbi xəstəliyin diaqnozunun gec qoyulması və müalicənin vaxtında başlanmamasıdır. Arzuolunmaz göstəricilərin artmasında mühüm amillərdən biri də ümumi praktik həkimlərin xoralı kolitin kliniki mənzərəsi və gedişatının formaları haqqında kifayət dərəcədə məlumatlı olmamasıdır [13,18].

Qeyri-spesifik xoralı kolitin etiologiya və patogenezi hal-hazırda kifayət dərəcədə öyrənilməmişdir. Təklif olunan çoxsaylı hipotez və nəzəriyyələr məsələnin hələ də həll olunmamasına dəlalət edir. İnfeksion, allergik, autoimmun, genetik və psixogen nəzəriyyələr geniş yayılmışdır [9,14] .

Son illər QSXK inkişafının patogenezində bağırsaq çöpünün iştirakını sübut edən bir sıra məlumatlar toplanmışdır. E.coli 0,14 ştammlarının antigenləri bağırsağın toxuma komponentləri ilə qarşılıqlı əlaqəyə girə bilən antitellərin sintezini induksiya edə bilir [2,4,5,6,10,16,17].

Tədqiqatçıların əksəriyyəti xəstəliyin autoimmun mənşəli olmasının tərəfdarıdırlar. Bu isə, yoğun bağırsağın özünün selikli qişasına qarşı antitellərin tapılması ilə təsdiq edilir [3,4]. Radikal cərrahi müalicədən sonrakı dövrdə QSXK-li xəstələrdə qanın immunoqramının normallaşması sübut edilmişdir [8].

Digər nəzəriyyəyə əsasən QSXK –nin inkişafına səbəb bu xəstəliyə qarşı genetik meylliliyin olmasıdır. QSXK və mədə-bağırsaq traktının digər xəstəlikləri ilə bağlı tam genetik tədqiqatlar A.V. Frolkisin (1995 ci il) elmi işinin icmalında göstərilmişdir. QSXK- in inkişafında genetik mexanizmlərin rolunu sübut edən hipotezlərin əsasında xəstəliyin ailəvi formalarının olması, həmçinin xəstəliyin tezliyinə görə populyasion müxtəlifliyin mövcudluğu durur [4].

QSXK-ə genetik meylliliyin öyrənilməsində insanın 6-cı xromosomunun qısa qolunda lokalizasiya olunan, əsas histouyğunluq kompleksinin HLA antigen sisteminin polimorfizmi mühüm yer tutur [6,20]. Xoralı kolitin gedişatının ağırlığı, onun lokalizasiyası və HLA antigenlərin arasında qarşılıqlı əlaqə müəyyən edilmişdir. QSXK-nin genetik markerlərinin daha da öyrənilməsi çox vacib və perspektivli olaraq qalır [1,8,9,15].

QSXK-nin patogenezində mühüm rol oynayan amillərdən biri də xəstənin şəxsi xüsusiyyətləri və psixogen təsirlərdir. Xəstənin stressə qarşı fərdi reaksiyası anomal neyrohumoral cavabla müşaiyət olunarsa, bu, xəstəliyin inkişafında təkan mexanizmi ola bilər [6,7].

QSXK-nin klinik mənzərəsi simptomların çoxluğu ilə fərqlənir. Çox vaxt qeyri- spesifik xoralı kolitin başlanğıc əlamətləri ishalın və qan qarışıqlı nəcisin olmasıdır. Xəstəliyin sonrakı klinik mənzərəsi 3 əsas əlamətlə xarakterizə olunur: bağırsaq qanaxmaları, ishal və qarında ağrıların olması. Patoloji prosesin yoğun bağırsaqda yayılma səviyyəsi və iltihabın aktivliyi xəstəliyin ağırliq dərəcəsini təyin edir [9].

QSXK-nin diaqnostikasında rektoromanoskopiyanın mühüm rolu var. Bu üsul, iltihabi prosesin aktivlik dərəcəsini qiymətləndirməyə imkan verir. QSXK xəstələrinin müayinəsində vacib olan metodlardan biri də fibrokolonoskopiyadır. Bu metodun köməyi ilə yoğun bağırsağın zədələnmə xarakteri və onun yayılma səviyyəsi müəyyən olunur [4,14,18].

Rentgenoloji muayinə qeyri-spesifik xoralı kolitli xəstələr üçün mütləq müayinə metodu hesab olunur. Qoyulmuş məqsəddən asılı olaraq, QSXK zamanı müxtəlif şüa diaqnostikası üsullarından istifadə olunur. Bunlardan icmal rentgenoqrafiya və irriqoskopiya geniş tətbiq olunur [5,16].

İrriqoskopiyanın aşkar üstünlüyü yoğun bağırsaqda olan morfoloji və funksional dəyişiklikləri müəyyən etmək, divarların elastikliyini və selikli qişanın relyefini qiymətləndirmək imkanının olmasındadır [4,17]. İrriqoskopiyanın informativliyi kifayət qədər yüksəkdir. Bəzi məlumatlara əsasən, yogun bağırsağın iltihabi xəstəlikləri zamanı bu metodun həssaslığı 89%, spesifkliyi-92%, deqiqliyi -87% təşkil edir [7].

Bəzi tədqiqatçılar hesab edirlər ki, qeyri-spesifik xoralı kolit zamanı rektoromanoskopiyanın irriqoskopiya ilə müştərək aparılması diaqnozun qoyulması üçün kifayət ola bilər [7,16].

Qeyri-spesifik xoralı kolitin diaqnozu, Kron xəstəliyində olduğu kimi, nisbi diaqnostik göstəricilərin məcmusu əsasında qoyulur, belə ki, klinik, endoskopik və morfoloji əlamətlərin heç biri 100% spesifikliyə malik deyil [17,18]. QSXK və Kron xəstəliyi arasında differensial diaqnostika mümkün olmadıqda xəstələrə "differensasiya olunmayan qeyri- spesifik kolit" diaqnozunun qoyulması fikri təklif olunmuşdur [9].

Qeyri- spesifik xoralı kolitin müalicəsinə konservativ tədbirlərlə başlanılır və əksər hallarda remissiya əldə olunur. Qeyri -spesifik xoralı kolitin kompleks konservativ müalicəsinə pəhriz, maddələr mübadiləsi pozğunluğunun parenteral korreksiyası, sulfanilamid preparatlarının tətbiqi, hormonal terapiya və immunodepressantlar daxildir [19].

Qeyri-spesifik xoralı kolitin ağır və konservativ müalicəyə tabe olmayan formalarından əziyyət çəkən xəstələr cərrahi mudaxiləyə məruz qalırlar. Müxtəlif tədqiqatlara əsasən, yoğun bağırsağı total olaraq zədələnmiş xəstələrin 10-56 %-də cərrahi müdaxilənin aparılması zəruridir [5,7,9, 10,11].

Ədəbiyyat məlumatının analizi göstərir ki, bu günə kimi QSXK-li xəstələrdə cərrahi müalicəyə göstərişlər, operativ üsullar və əməliyyatın həcminə dair vahid taktika işlənməmişdir. Konservativ müalicənin gücləndirilməsi hesabına cərrahi müalicəyə göstərişlərin ixtisar olunmasına tendensiya müşahidə olunur. Əgər 60-cı illərdə QSXK-li xəstələrin 30-56%-i cərrahi müdaxiləyə uğramışdırsa, 70-ci illərdən başlayaraq bu günə kimi bu göstərici 9-28%-ə qədər enmişdir [7,20].

QXK və Kron xəstəliyi arasında differensial diaqnostikanın yaxşılaşmasından sonra QXK-nin cərrahi müalicəsinə göstərişlər xüsusilə azalmışdır [16,19].

Hal-hazırda konservativ terapiya qeyri-spesifik xoralı kolitli xəstələrin müalicəsində əsas üsuldur. Lakin effekt əsasən xəstəliyin yüngül və orta-ağır formalarında müşahidə edilir, ağır formalarda isə konservativ müalicə praktiki olaraq uğursuzdur. Ədəbiyyat məlumatları göstərir ki, konservativ terapiya ağır qeyri-spesifik xoralı kolitli xəstələrin 25-30%-də qeyri-effektiv olur [8,11,14]. Müəlliflərin əksəriyyəti QXK-nin operativ müalicəsinə göstərişləri mütləq və nisbiyə bölürlər [8,9].

Mütləq göstərişlərə bağırsağın perforasiyası, profuz qanaxma, 12-24 saat ərzində konservativ terapiyaya tabe olmayan yoğun bağırsağın toksiki dilatasiyası, bağırsağın hissəvi keçməməzliyi əlamətləri ilə keçən davamlı strikturaların inkişafı, maliqnizasiya aid edilir. Bu hallarda, bir qayda olaraq, əməliyyat həyati göstərişlə yerinə yetirilir. Bu zaman əməliyyatdansonrakı letallığın azalmasına meyllilik müşahidə edilmir: bağırsaq qanaxmalarında 8-12%, dilatasiyalarda 15-26%, perforasiyada 50-60%-dən aşağı təşkil edir [4,7,9, 20].

Təcili operativ müdaxilənin vacibliyinə dair daha çox fikir birliyi xəstələrin 5-6%-də təsadüf edilən yoğun bağırsaq xoralarının perforasiyasında qeyd edilir. Qeyd olunan ağırlaşmanın inkişafı ileostomanın qoyulması ilə təcili subtotal kolektomiyanın yerinə yetirilməsini tələb edir. Hətta perforasiyanın yaranmasına şübhə belə təcili cərrahi müdaxiləyə göstəriş olmalıdır, belə ki, üzülmüş xəstələrdə peritonit simptomları gizli inkişaf edərək, fövqəladə zəif ola bilər [3,7,9,13].

Müxtəlif müəlliflərin məlumatlarına görə tezliyi 1,5-dən 5%-ə qədər olan profuz bağırsaq qanaxmalarının cərrahi müalicəsinə dair mülahizələrdə də elə bir fikir ayrılığı yoxdur. Qanitirmənin qiymətləndirilməsi kriteriləri kimi əvvəlkinə nisbətən hemoqlobin səviyyəsinin 30% azalması və əvəzedici terapiyadan- xəstə stasionara daxil olduqdan 24 saat müddətində 500 ml eritrositar kütlənin transfuziyasından effektin olmaması təklif edilmişdir [4,20]. Q.İ.Vorobyov və həmmüəllifləri (2003) qeyd edirlər ki, sutkada 150 ml və ondan çox qanitirmə təcili əməliyyata göstərişdir [98]. Bu ağırlaşma zamanı əməliyyatın həcmi xoraların perforasiyasındakı kimi olmalıdır [11].

Təxirəsalınmaz cərrahi müdaxilə tələb edən yoğun bağırsağın toksiki diltasiyası və ya toksiki meqakolon, 4-8% xəstələrdə QXK-nin gedişatını ağırlaşdırır. Bu ağırlaşma, yəqin ki, yoğun bağırsaq divarında sinir qanqliyonlarının toksiki və iltihabi zədələnməsinin nəticəsidir. Bu isə yoğun bağırsağın bu və ya digər seqmentinin kəskin meydana çıxan iflici ilə ifadə olunur. Klinik mənzərə kəskin bağırsaq keçməməzliyi tipi üzrə inkişaf edir və qarında ağrı, qarnın köpməsi, artan intoksikasiya, qusma, nəcis və qazların xaric olmaması ilə meydana çıxır. Diareya ilə mübarizə üçün təyin edilən medikamentoz preparatların təsiri altında inkişaf edən bağırsağın parezi toksiki meqakolonu stimullaşdıra bilər. Yoğun bağırsağın həqiqi toksiki dilatasiyasında subtotal kolektomiya göstərişdir [3,8].

Beləliklə, QXK-nin ağırlaşmış formalarında cərrahi taktikada seçim metodları çoxmərhələli, həmçinin orqansaxlayıcı müdaxilələrdir [13].

Passajın pozulması və hissəvi bağırsaq keçməməzliyi əlamətləri ilə keçən çapıq strikturaları xəstələrin 6,3-11,2%-də təsadüf edilərək, əməliyyata mütləq göstərişdir [11,13?16].

Bəzi müəlliflər, israrlı müalicəyə baxmayaraq, düz bağırsaq güdülündə proqressivləşən iltihabi dəyişiklikləri, psevdopoliplərin olmasını, düz bağırsaq sfinkteri funksiyasının ağır pozğunluqlarını əməliyyata mütləq göstəriş hesab edirlər [5,6,11].

Düz və çənbər bağırsaq xərçənginin inkişafı zamanı cərrahi müalicə qaçılmazdır [20]. Vorobyov Q.İ. həmmüəlliflərlə birlikdə (2001) QXK zamanı yoğun bağırsaq xərçənginin inkişaf riski xəstəlik 10 ildən artıq olduqda, kolit 18-dən kiçik yaşdan, xüsusilə 10 yaşdan başladıqda kəskin artır [7]. Digər müəlliflər də həmçinin uşaq və gənc yaşlarında xəstəlik yarandıqda maliqnizasiya təhlükəsi olduğunu qeyd edirlər. 20

ildən artıq davamiyyəti olan total kolitdə maliqnizasiya ehtimalı qalan ömrün hər növbəti ili 5% təşkil edir. Müəyyən edilmişdir ki, xərçəng bağırsağın total zədələnməsi olan xəstələrdə seqmentar zədələnməyə nisbətən daha çox təsadüf edilir: müvafiq olaraq 21% və 3,4% [1,6,9].

QXK fonunda inkişaf edən xərçəng fövqəladə invazivdir, çox vaxt multisentrikdir, gənc yaşlarında insanları zədələyir, çətin diaqnostika olunur. Çox vaxt xərçəngin «total» adlandırılan forması təsadüf edilir, bu zaman histoloji olaraq şişin yoğun bağırsağın bütün qatlarına keçməsi aşkar edilir. İnkişafın endofit xarakterində şiş böyük ölçülərə malik olur [6].

Kapuller L.L. və həmmüəllifləri (2003) qeyd edirlər ki, əksər şişlər histoloji quruluşuna görə adenokarsinomalara (76%) aid edilir, lakin adi kolorektal xərçəngə nisbətən xərçəngin differensasiya olunmayan formalarının faizi (24%) daha çoxdur [7].

Qeyd olunan qeyri-qənaətbəxş fərqləndirici xüsusiyyətlər bir zamanlar qeyri-spesifik xoralı kolit zamanı bədxassəli prosesə çevrilmənin profilaktikasının aparılmasının zəruriliyi fikrinə gətirib çıxarmışdır. Bəzi müəlliflər 3-4 il və daha artıq müddətində davam edən QXK xəstəliyi zamanı preventiv kolektomiyanın aparılmasını israr etmişlər [11]. Əksər cərrahlar preventiv kolektomiyanın əleyhinə çıxış edərək, bu növ əməliyyatların nəticələri xərçəngin yaranma riskini doğruldmur. Beləliklə, profilaktik kolektomiya geniş yayılmamışdır [9].

Cərrahi müdaxiləyə mütləq göstəriş həmçinin 5% halda təsadüf edilən və yüksək letallıqla (45-75%) müşaiyət edilən xəstəliyin ildırımsürətli formasıdır. Xəstəlik qəfləti başlanğıc və klinik mənzərənin surətli inkişafı ilə xarakterizə olunur, bu isə 1-2 həftə ərzində, nadir hallarda- bir neçə gün ərzində baş verir. Bu zaman qabarıq ifadə olunmuş diareya sindromu, sonra septiki əlamətlər, dərin mübadilə pozğunluqları, həyat üçün təhlükəli ağırlaşmalar qeyd edilir. Beləliklə, tam klinik mənzərənin tez inkişafı ilə prosesin çox ağır olmasının müştərək təsadüf edilməsi QXK-nin bu formasının fərqləndirici cəhətidir [3].

Cərrahi müalicəyə göstəriş həmçinin kəskin forma və ya xəstəliyin ağır residivində 7-10 gün ərzində intensiv kompleks terapiyanın qeyri-effektivliyi zamanı təyin edilir [21]. QXK-nin ağır həmlələri yekunda proqnozlaşdırılmır [3]. Müəyyən edilmişdir ki, QXK-də letal nəticələr əksər hallarda peritonit və pnevmoniyanın inkişafı zamanı müşahidə edilir [5].

Çox vaxt QXK-nin ağır gedişatı cərrahi müdaxilə tələb edən həyat üçün təhlükəli vəziyyətlə ağırlaşır. Yuxarıda qeyd edildiyi kimi, bu zaman yüksək letallıq müşahidə edilir. Ona görə də cərrahi müalicəni ağırlaşmaların əmələ gəlməsinə qədər aparmaq vacibdir. Planlı əməliyyatlarda letallıq orta hesabla 1,8% təşkil edir [21].

Operativ müalicəyə nisbi göstərişlərin müəyyən edilməsində də çox təsadlar vardır. A.A.Vasilyev (1967) nisbi göstərişlərə proqressivləşən gedişatlı xoralı koliti, psevdopolipozlu, düz bağırsağın strikturası və digər ağırlaşmaların inkişafı ilə müşahidə edilən xoralı koliti aid etmişdir [11].

İ.Y.Yudin (1976) hesab edirdi ki, xəstəliyin ağırgedişatlı kəskin forması 3-4 həftə ərzində intensiv konservativ terapiyadan sonra posesin sönməsinə doğru tendensiyası olmursa, xəstəliyin fasiləsiz gedişatlı ağır forması və tez-tez kəskinləşmələr ilə residivləşən forma əməliyyata nisbi göstərişlər ola bilər [108].

Əksər müəlliflər tərəfindən əməliyyata göstəriş kimi həmçinin xəstələri əlilliyə gətirib çıxaran, yoğun bağırsağın morfoloji vəziyyətinin normallaşmasına tendensiya müşahidə edilməyən xəstəliyin xroniki proqressivləşən gedişatı və konservativ müalicənin qeyri-effektivliyi hesab edilir [12, 21].

Əksər tədqiqatçılar QXK-nin cərrahi müalicəsinə göstəriş kimi sistem ağırlaşmaların inkişafını qeyd edirlər: artritlər, qanqrenoz piodermiya, uveit, iridosiklit, qaraciyərin piy distrofiyası, hepatit, sirroz, birincili sklerozlaşdırıcı xolangit, həmçinin perianal ağırlaşmaların olması, qaz, nəcisi saxlayabilməmə, eritropoezin qarşısının alınması, 50-100 ml/sutka həcmdə qanaxma. Qeyd olunan müəlliflərin müşahidələrinə görə sistem ağırlaşmalar xəstəliyin ağır gedişatına və cərrahi müalicə üsuluna keçməyin vacibliyinə dəlalət edir [14,15, 16,18,19]. Ədəbiyyat məlumatlarına görə qaraciyərin aktiv hepatit və sirroz şəklində qabarıq zədələnmələri çox vaxt QXK-nin ağır yayılmış formalarını müşaiyət edir [18,19].

Fasiləsiz gedişatlı QXK-nin xroniki formaları, həmçinin ağır gedişatlı, konservativ terapiyaya refrakter, daim həkim nəzarəti tələb edən, sosial statusun itirilməsi ilə xəstələrin əlilliyinə gətirib çıxaran residivləşən formalar cərrahi müalicəyə məruz qalmalıdır. Bəzi tədqiqatçılar hesab edirlər ki, bu cür xəstələrdə operativ müalicə xəstəlik başlandıqdan 3 il sonra, digərləri isə 5 il sonra aparılmalıdır [12,21].

Uşaqlar və yeniyetmələrdə əməliyyata göstərişin sümük aparatının böyümə qabiliyyətinin bitməsinə qədər həll olunması vacibdir, belə ki, davam edən QXK fiziki inkişafdan geri qalmaya səbəb ola bilər [14,15, 16,17,19].

Cərrahların əksəriyyəti müdaxilənin daha tez müddətdə yerinə yetirilməsinin vacibliyini söyləyirlər. Xəstəliyin ilkin mərhələlərində və ya remissiya dövründə cərrahi müalicə radikal müdaxilənin daha qənaətbəxş nəticəsinə və ileorektal anastomozun qoyulması imkanına şərait yaradır [12]. Q.İ.Vorobyov və

həmmüəllifləri (2004) qeyd edirlər ki, QXK-nin ağır forması zamanı hormonoterapiyaya rezistent, 1 aydan çox qeyri-effektiv konservativ müalicənin aparılması əməliyyatdansonrakı ağırlaşmaların və letallığın tezliyini artırır [12].

Tez aparılmış əməliyyatlar ən yaxşı uzaq nəticələr verir, həmçinin bərpaedici əməliyyatların, belə ki, postkolektomik sindromun inkişafının ağırlıq dərəcəsinin xəstəliyin davamiyyəti arasında dürüst korrelyasiya müşahidə edilir [7,8].

Beləliklə, qeyri-spesifik xoralı kolitin cərrahi müalicəsinə göstərişlərə dair ədəbiyyat məlumatlarını analiz edərkən, xəstənin vəziyyətinin ağırlığının dəqiq kriterilərinin və xəstəliyin gedişatını proqnozlaşdıran diaqnostik əlamətlərin olmaması ilə şərtlənən bu məsələ üzrə nəzər nöqtəsinin çox təzadlı olması haqqında nəticə çıxarmaq olar. Həmçinin əksər müəlliflərin cərrahi müdaxilənin müxtəlif ağırlaşmalar inkişaf edənə qədər yerinə yetirilməsi haqqında fikirləri ilə razılaşmamaq mümkün deyil, cünki bu taktika urgent əməliyyatların sayının azalmasına və operativ müalicənin nəticələrinin yaxşılaşmasına şərait yaradır.

ƏDƏBİYYAT

1.Адлер Г. Болезнь Крона и язвенный колит. М.: Гэотар Мед, 2001, 528с.

2.Александров В.Б., Юрков М.Ю. Место консервативного и хирургического методов в терапии неспецифического язвенного колита // Российский гастроэнтерологический журнал, 2000, №1, с.82-85.

3.Булгаков А.В., Райнох Э.Н., Булгаков Р.А. Новые аспекты хирургического лечения неспецифического язвенного колита // Здравоохр. Башкорстана, 1997, №1-2, с.59-66.

4.Воробьев Г.И., Михайлова Т.Л., Костенко Н.В. Хирургическое лечение гормонорезистентной формы неспецифического язвенного колита // Хирургия. - 2004.- №5, с.39-45.

5. Эндер Л.А., Ашуров М.Г., Голубкова Г.М., Пирогов А.И. Диагностика и хирургическое лечение тяжелых и осложненных форм неспецифического язвенного колита и болезни Крона / В сб.: хронические болезни кишечника. М., 1987. с.79 - 82.

6.Златкина А.Р., Белоусова Е.А., Никулина И.В. Эпидемиологические исследования воспалительных заболеваний кишечника в Московской области // Колопроктология, 2003, №2. с.3-5.

7.Каншина О.А., Каншин Н.Н. Неспецифический язвенный колит у детей (и взрослых). М.: Биоинформсервис, 2002,212с.

8.Каншин Н.Н. Тотальная колэктомия с одномоментной илеоректостомией при тяжелом неспецифическом язвенном колите, осложненном сужением прямой кишки // Вестник хирургии, 2004, №2, с.94-96.

9.Каншин Н.Н., Голубцова Е.Е. Тотальная колонэктомия с одномоментной илеоректостомией при тяжелом неспецифическом язвенном колите у детей и взрослых // Хирургия, 2004, №1, с.34-37.

10.Капуллер Л.Л, Маринушкин А.М., Костенко Н.В. Морфологические особенности раковых опухолей, возникающих на фоне хронического язвенного колита // Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии, 2003, № 4, с.58-62.

11.Халфиев Н.Г., Абдулхаев Р.Ш.,, Халфиева Г.М. и др. Клинико-рентгенологические исследования больных неспецифическим язвенным колитом / Сб. научных трудов КГМУ. Казань, 2000, с.297-299.

12.Ерошкина Т.Д., Блинова О.В. Коррекция нарушений метаболизма в раннем послеоперационном периоде при тяжелых формах неспецифического язвенного колита и болезни Крона // Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии, 2003, № 4, с.63-68.

13.Парфенов А.И., Богомолов П.О., Луфт В.М. и др Морфофункциональные изменения и микробиоценоз тонкой кишки у больных язвенным колитом // Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии, 2000, №1, с.55-61.

14.Никулина И.В., Белоусова Е.А., Златкина А.Р. с соавт. Клинико- эпидемиологический анализ распространенности язвенного колита в Московской области // Российский журнал гастроэнтерологии, гепатологии. Колопроктологии, 1996, Т.6, №4, с. 133.

15.Головенко О.В., Михайлова Т.Л., Веселов В.В. Особенности клинической картины и терапевтического ответа на аминосалицилаты и кортикостероиды у больных неспецифическим язвенным колитом с ретроградным илеитом // Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии, 2003, №5, с.71-74.

